RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 49 (10069) 17 mart 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## İlham Əliyev Kasım-Jomart Tokayevi təbrik edib

### Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstan Respublikasının yeni Konstitusiyası üzrə referendumun müvəffəqiyyətlə başa çatması münasibətilə Sizi və Sizin simanızda qardaş Qazaxıstan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Referendumun nəticəsi - yeni Konstitusiyanın qəbulu xalqınızın birliyinin və milli iradəsinin bariz ifadəsi, Sizə olan böyük inam və etimadının təzahürü, Qazaxıstanın rifahı naminə yürütdüyünüz qətiyyətli siyasətə dəstəyinin göstəricisidir. Heç şübhə yoxdur ki, siyasi sistemin modernləşdirilməsini və idarəetmə modelinin təkmilləşdirilməsini nəzərdə tutan bu mühüm hadisə Qazaxıstanın tarixində yeni mərhələnin başlanğıcını qoyaraq qardaş ölkənizin hərtərəfli inkişafına töhfə verəcək, onun beynəlxalq müstəvidə rolunu və mövqeyini daha da gücləndirəcəkdir.

Əminəm ki, xalqlarımızın ortaq tarixindən, zəngin mənəvi dəyərlərindən güc alan, dostluğa, qardaşlığa, qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-Qazaxıstan əlaqələri, strateji tərəfdaşlığı və müttəfiqliyi bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə inkişaf etməyə və daha da möhkəmlənməyə davam edəcəkdir.

Hörmətli Kasım-Jomart Kemeleviç, bu böyük zəfər münasibətilə Sizə bir daha təbriklərimi çatdırır, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Qazaxıstan xalqına isə daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 mart 2026-cı il*

# İLHAM ƏLİYEV: «SÜLHDƏN YAXŞI HEÇ NƏ OLA BİLMƏZ»




Azərbaycanın qələbəsi tam, qəti və şəksiz olsa da, yenə sülh təşəbbüsü ilə ilk olaraq çıxış etdi!

Beynəlxalq hüququn təməl prinsiplərini özündə əks etdirən sülh müqaviləsi hazırlayaraq imzalanması üçün Ermənistan tərəfinə təqdim etdi.

8 avqust 2025-ci ildə sülh sazişinin bəndləri Vaşinqtonda, ABŞ Prezidenti D.Trampın iştirakı ilə paraflandı.

Yeganə maneə Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmamasıdır.

Bu baş tutandan sonra digər əngəl yoxdur.

Əslində, Azərbaycan daim sülh tərəfdarı olub və münaqişənin danışıqlar yolu ilə başa çatmasını istəyib!

Lakin havadarlarına və müdafiəçilərinə arxalanan Ermənistan Azərbaycandan yeni ərazilər qopararaq özünə birləşdirmək fikrindən heç zaman əl çəkməyib.

Hətta Azərbaycanın "ən yüksək status" təklifi və güzəşti ilə də razılaşmayıb.

"Miatsum" deyə bağıranlar gec-tez güzəştə gedəcəyimizi düşünürdülər.

Lakin İlham Əliyevin mövqeyi qəti və dönməz idi:

Azərbaycan bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcəkdir!

Getmədi də!

30 il özünü qalib sayan, Azərbaycan torpaqlarında separatçı rejim yaradaraq qondarma respublika quran və mənfur niyyətinə çatdığını güman edən Ermənistanın aqibəti necə oldu?!

* Monoetnik respublikaya çevrildi;
* Əhalisi dilənçi vəziyyətinə düşərək ölkəni tərk etdi;
* İşsizlik və yoxsulluq ən yüksək səviyyəyə çatdı;
* Anaları oğulsuz qoyaraq Yerablur adlı bir məzarıstanlıq yaratdılar;
* Dünyadan nə qədər erməni yığsalar da, işğal ərazilərini məskunlaşdıra bilmədilər;
* Yaşayış məntəqələrini, qəbiristanlıqları, dini və mədəni abidələri dağıdaraq bayquşlar kimi xarabalıqlarda yaşadılar;
* Dünya erməniliyinin ianələri hesabına böyük sərvət toplayan "Miatsum" liderləri və Ermənistan rəhbərləri özləri sərvət sahiblərinə çevrilsələr də, erməni xalqı bu "ideya"dan çox itkilərə məruz qaldı.

Özgə torpağına yiyələnmək və öz torpaqlarını işğaldan azad etmək uğrunda mübarizədə və müharibədə Ermənistan da, Azərbaycan da çox itkilər verdi.

İtkilər fərqi yekun nəticədə daha aydın görünür:

Azərbaycan qalib dövlətə çevrilərək ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa etdiyindən onun itkiləri özünü doğruldur.

Ermənistan isə xülyaya qapıldığından Azərbaycan atalar sözlərində deyildiyi kimi, "Əli aşından da oldu, Vəli aşından da".

Nə mifik Ermənistan qura bildi, nə forposta çevrildiyindən əsl müstəqilliyinə nail oldu, nə də maddi, mənəvi və insan resursları itkisinə bəraət qazandıra bilir.

5

## Naxçıvan türk dünyasının bütövlüyünün rəmzinə çevriləcək



Müstəqil Azərbaycana rəhbərliyi illərində Ümummilli Lider Naxçıvan Muxtar Respublikasından diqqət və qayğısını əsirgəmədi. Ulu Öndər hakimiyyətdə olduğu dövrdə 4 dəfə Naxçıvan Muxtar Respublikasına səfər etdi. Birinci səfər 1996-cı il oktyabrın 29-da, ikincisi 1999-cu il oktyabrın 10-da, digərləri isə 2002-ci il iyunun 15-də və həmin il avqustun 10-da reallaşdı.

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına Ulu Öndərin doğum günündə 10 may 2021-ci il tarixli səfəri təsadüfi deyildi. Dövlətimizin başçısının vurğuladığı kimi: "Tarixi Zəfərdən sonra bu, atamın birinci doğum günüdür. Ona görə mən hesab etdim ki, ənənəvi olaraq onun məzarını ziyarət edəndən sonra onun Vətəninə - Naxçıvana gəlim. Hesab edirəm ki, bu səfərin çox böyük rəmzi mənası var. Qeyd etdiyim kimi, mən 15-ci dəfədir ki, Naxçıvana gəlirəm. Amma ilk dəfə mayın 10-da Naxçıvandayam. Bu doğum günündə mütləq burada olmalıydım".

6

## XIII Qlobal Bakı Forumunun çağırışları: *dialoq, əməkdaşlıq və təhlükəsizlik*

XIII Qlobal Bakı Forumu bir daha göstərdi ki, müasir dünyada dialoq və əməkdaşlıq alternativsizdir. Qlobal çağırışların artdığı bir dövrdə müxtəlif baxışların müzakirə olunduğu və ortaq həll yollarının axtarıldığı belə platformaların rolu daha da artır. Bakı artıq qlobal dialoq mərkəzlərindən birinə çevrilərək beynəlxalq münasibətlər sistemində mühüm intellektual və siyasi müzakirə platforması kimi çıxış edir.

Forumun əsas nəticələrindən biri də ondan ibarət oldu ki, sülh, sabitlik və təhlükəsizlik yalnız qarşılıqlı etimad və əməkdaşlıq yolu ilə təmin oluna bilər.

7

## Avropa İttifaqı etiraf edir

### Əsas diqqət Avropadan Mərkəzi Asiyaya uzanan bağlantılara yönəlib



"Orta dəhliz Avropa və Asiya arasında yeni ticarət ekosistemi formalaşdırır. Orta dəhliz boyunca ticarətin inkişafından yalnız Mərkəzi Asiya deyil, həm də Avropa faydalanır". Bu sözləri isə Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) Cənubi Qafqaz üzrə regional direktoru Alkis Drakinos forum çərçivəsində keçirilən "Cənub-Şərqi Avropa və Trans-Xəzər regionunun biznesi" sammitində söyləyib. O, həmçinin qeyd edib ki, ticarətə, enerjiyə və infrastruktura artan tələbat dünya bazarlarındakı konyunktur dəyişikliklərindən asılı olmayaraq, Orta dəhlizin inkişafına davamlı tələb yaradır.

8

## Enerjinin İpək yolu




Enerjinin İpək yolu sayılan TANAP 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Qardaş ölkəyə ilk qaz həcmlərinin nəqli isə planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlanıb. TANAP Türkiyənin ərazisində 1850 kilometrlik məsafə qət edir, ölkənin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçərək Avropanın qapısına çatır. Kəmərin Gürcüstan-Türkiyə sərhədində başlayıb Əskişəhərdə bitən hissəsinin uzunluğu 1350 kilometr, oradan Türkiyə-Yunanıstan sərhədinədək olan hissəsi isə 480 kilometr təşkil edir. 2019-cu il iyulun 1-dən etibarən TANAP Azərbaycan qazını TAP-a ötürmək üçün hazır vəziyyətə gətirilib.

9

## Yaxın Şərq böhranı Ermənistan iqtisadiyyatını çıxılmaz vəziyyətə salıb



Regional və qlobal geosiyasi şərait, xüsusilə İran ətrafında yaranmış gərginlik fonunda Yaxın Şərqdə və regionda təhlükəsizlik mühitinin qeyri-müəyyənliyi artıb. Belə bir vəziyyətdə Cənubi Qafqaz ölkələri, xüsusilə də dünyaya çıxışı məhdud olan Ermənistan üçün sabitliyin və regional əməkdaşlığın əhəmiyyəti daha da artır. Çünki Ermənistanın iqtisadiyyatı, xüsusən ticarət və logistika marşrutları bu geosiyasi gərginlikdən birbaşa təsirlənir. Son dövrlər Ermənistan hakimiyyəti iqtisadiyyat sahəsini diversifikasiya etmək və Rusiyadan asılılığı azaltmaq üçün müəyyən addımlar atır.

9

# "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 489 (Cild I); 2024, № 5 (I kitab), maddə 489) aşağıdakı dəyişikliklər edilsin:

1.1-ci maddənin birinci hissəsi üzrə:

1.1. dördüncü - səkkizinci abzaslar müvafiq olaraq on birinci - on beşinci abzaslar, doqquzuncu - on beşinci abzaslar müvafiq olaraq on səkkizinci - iyirmi dördüncü abzaslar hesab edilsin;

1.2. aşağıdakı məzmunda dördüncü - onuncu, on altıncı və on yeddinci abzaslar əlavə edilsin:

**"milli film** - xarici film hesab edilməyən və bu Qanunun 4-cü maddəsində göstərilən tələblərə cavab verən film;

**xarici film** - bütövlükdə xarici prodüser (prodüserlər) tərəfindən istehsal edilən film;

**birgə istehsal filmi** - yerli və xarici prodüserlərin birgə istehsal etdikləri və milli film hesab edilməyən film;

**film istehsalı** - film çəkilişinə hazırlıq, film çəkilişi və film çəkilişinin tamamlanması mərhələlərini özündə əhatə edən proses;

**film çəkilişinə hazırlıq** - filmin ideyasının yaranması, konsepsiyasının hazırlanması, ssenarisinin yazılması və film çəkilişi məqsədi ilə digər inzibati və texniki məsələlərin həlli ilə əlaqədar işləri əhatə edən proses;

**film çəkilişi** - filmin bilavasitə kinolentə və ya digər daşıyıcıya çəkilişini təmin edən fəaliyyətləri əhatə edən proses;

**filmin çəkilişinin tamamlanması** - çəkilmiş kadrların redaktəsini, filmin vizual, səs və rəng işləmələrini, effekt, titr və qrafik tərtibatını əhatə edən proses;";

**"yerli prodüser** - Azərbaycan Respublikasının vətəndaşı və ya qanunla müəyyən olunmuş qaydada Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçmiş hüquqi şəxs olan prodüser;

**xarici prodüser** - əcnəbi və ya vətəndaşlığı olmayan şəxs və ya xarici hüquqi şəxs olan prodüser;".

2.3-cü maddənin birinci hissəsinin altıncı və yeddinci abzasları yeddinci və səkkizinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"xarici prodüserləri Azərbaycan Respublikasının ərazisində film istehsalına cəlb etmək üçün təşviqedici tədbirlərin həyata keçirilməsi;".

3. 4-cü maddənin ikinci hissəsində "müştərək çəkilmiş" sözləri "birgə istehsal edilmiş" sözləri ilə əvəz edilsin.

4. 7-ci maddə üzrə:

4.1. birinci hissədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.2. üçüncü hissəyə "orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin.

5. 10-cu maddənin birinci hissəsində "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

6. 13-cü maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:

"Xarici prodüserləri Azərbaycan Respublikası ərazisində film istehsalına cəlb etmək məqsədilə filmlərin istehsalı üçün çəkilmiş xərclər qismən geri ödənilir.

Xarici və birgə istehsal filmlərinin istehsalı üçün çəkilmiş xərclərin qismən geri ödənilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada və şərtlərlə həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

# Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 17-ci və 25-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787 (Cild I); 2024, № 7, maddə 747; 2025, № 6, maddə 524, № 7, maddə 627) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9.0.5-ci maddəyə "sənədləri" sözündən sonra ", "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən emal edilməmiş almazlara dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyini" sözləri əlavə edilsin;

1.2. 92.2.3-cü maddəyə "sənədlərlə" sözündən sonra ", "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən emal edilməmiş almazlara dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyi ilə" sözləri əlavə edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15, № 2, maddə 99, № 3, maddə 217,№ 4 (I kitab), maddələr 305, 311, № 5, maddələr 434, 440, № 6, maddə 529, № 7, maddələr 607, 619, 626,№ 8, maddələr 736,741; Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 247-VIIQD nömrəli, 30 dekabr tarixli 334-VIIQD və335-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 43.1-ci maddəyə"456," rəqəmlərindən sonra "457.3," rəqəmləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 457.3-cü maddə əlavə edilsin:

"457.3. Emal edilməmiş almazların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyi olmadan idxalı və ixracına görə -

fiziki şəxslər beş yüz əlli manatdan yeddi yüz əlli manatadək məbləğdə, vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.".

**Maddə 3.** "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 10, maddə 870 (Cild I); 2024, № 2, maddələr 132, 138, № 3, maddə 250) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1.10-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.1.11-ci maddə əlavə edilsin:

"1.1.11. emal edilməmiş almazlar - işlənməmiş və ya sadəcə yonulmuş, parçalanmış və ya qırılmış və xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodları üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunan qiymətli daşlar.";

3.2. 12-ci maddənin adına, 12.1-ci maddənin birinci və ikinci cümlələrinə,12.2-ci və 12.3-cü maddələrə "zərgərlik" sözündən əvvəl "emal edilməmiş almazlar," sözləri əlavə edilsin;

3.3. aşağıdakı məzmunda 17.3-cü və 17.4-cü maddələr əlavə edilsin:

"17.3. Emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir. Emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində dövlət nəzarətinin həyata keçirilməsi və "Emal edilməmiş almazların ixracı ilə əlaqədar "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nin tələblərinə uyğun sertifikatın forması və verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

17.4. Azərbaycan Respublikasında emal edilməmiş almazların idxalı və ixracı yalnız "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə üzv dövlətlərdən həyata keçirilə bilər. Emal edilməmiş almazların idxalı və ixracı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyi əsasında həyata keçirilir.";

3.4. 20-ci maddə üzrə:

3.4.1. 20.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"20.1. Bu Qanunun tələblərini pozan şəxslər qanunla müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.";

3.4.2.20.3-cü maddədə "Bu Qanunun 10.3-cü maddəsinin tələblərinin pozulması, habelə qiymətli" sözləri "Qiymətli" sözü ilə əvəz edilsin.

**Maddə 4.** Bu Qanun Azərbaycan Respublikasının "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulduğu gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2026-cı il*

# "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 364-VIIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 avqust tarixli 750 nömrəli Fərmanında dəyişiklik edilməsi, "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında" 2001-ci il 4 iyul tarixli 526 nömrəli Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 364-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin birinci və üçüncü hissələrində, 10-cu maddəsinin birinci hissəsində və 13-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 7-ci və 13-cü maddələrinin üçüncü hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 7-ci və 10-cu maddələrinin birinci hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi nəzərdə tutulur.

2. "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 750 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 500 (Cild I) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Kinematoqrafiya haqqında"Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin birinci və üçüncü hissələrində, 10-cu maddəsinin birinci hissəsində və 13-cü maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 7-ci və 13-cü maddələrinin üçüncü hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.3. həmin Qanunun 7-ci və 10-cu maddələrinin birinci hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi nəzərdə tutulur.".

3. "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 526 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 463 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 mart 2026-cı il*

# Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsinin bərpası və konservasiyası işlərinə vəsait ayrılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, XII əsr Azərbaycan memarlığının görkəmli nümunəsi olan Möminə xatun türbəsinin kompleks bərpası və konservasiyası işlərinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsində bərpa və konservasiya işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 9,566.0 min (doqquz milyon beş yüz altmış altı min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,16 mart 2026-cı il*

# Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Hüseynov Ramil Arif oğlu - mayor

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Mövlayev Samir Yaqub oğlu - mayor
Abbasov Elsevər Məhəmməd oğlu - kapitan
Eldarov Zaur Səvzixan oğlu - kapitan
Hüseynov Elçin Allahverdi oğlu - kapitan
Fərzəliyev İlkin Mirzə oğlu - leytenant
Vahabzadə Şahin İdayət oğlu - leytenant
Adamov Xəyal Fikrət oğlu - baş çavuş
Hacızadə Səbuhi Elşən oğlu - baş çavuş
Qəhrəmanzadə Elman Qəhrəman oğlu - baş çavuş.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,16 mart 2026-cı il*

# "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 20 fevral tarixli 358-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 20 fevral tarixli 358-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1.Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 9.0.5-ci və 92.2.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 9.0.5-ci və 92.2.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi nəzərdə tutulur;

1.3. Azərbaycan Respublikasıİnzibati Xətalar Məcəlləsinin 457.3-cü maddəsindənəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Məcəllənin 457.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi nəzərdə tutulur;

1.5. "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.11-ci maddəsində, 17.3-cü maddəsinin birinci və ikinci cümlələrində və 17.4-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.6. həmin Qanunun 1.1.11-ci maddəsində və 17.3-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.7. həmin Qanunun 17.3-cü maddəsinin birinci cümləsində və 17.4-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1."Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun 17.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində dövlət nəzarətinin həyata keçirilməsi və "Emal edilməmiş almazların ixracı ilə əlaqədar "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nin tələblərinə uyğun sertifikatın formasını və verilməsi qaydalarını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2."Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 20 fevral tarixli 358-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 175 (Cild I); 2024, № 6 (I kitab), maddə 647, № 9, maddə 1001; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 yanvar tarixli 580 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1 nömrəli əlavə - "İxracı və idxalı Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı əsasında həyata keçirilənmalların Siyahısı"nın 6-cı hissəsi ləğv edilsin;

3.2. 2 nömrəli əlavə - "İxracı və idxalı müvafiq dövlət orqanlarının rəyi alınmaqla aparılan spesifik malların (xidmətlərin və əqli mülkiyyətin) Siyahısı" üzrə:

3.2.1. "İxrac" hissəsinə aşağıdakı məzmundayeddinci abzas əlavə edilsin:

| | | |
|---|---|---|
| Emal edilməmiş almazlar | | Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi |

3.2.2. "İdxal" hissəsində dördüncü-yeddinci abzaslar müvafiq olaraq beşinci-səkkizinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

| | | |
|---|---|---|
| Emal edilməmiş almazlar | | Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi |

4. "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 555 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 234 (Cild I); 2025, № 11, maddə1018) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci və 1.2-ci bəndlər müvafiq olaraq 1.3-cü və 1.4-cü bəndlər hesab olunsun və aşağıdakı məzmunda 1.1-ci və 1.2-ci bəndlər əlavə edilsin:

"1.1. "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.11-ci maddəsində, 17.3-cü maddəsinin birinci və ikinci cümlələrində və 17.4-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 1.1.11-ci maddəsində və 17.3-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

4.2. 1.3-cü bənddə "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin Qanunun" sözləri ilə əvəz edilsin;

4.3. 1.4-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.5-ci bənd əlavə edilsin:

"1.5. həmin Qanunun 17.3-cü maddəsinin birinci cümləsində və 17.4-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi nəzərdə tutulur.".

5. "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 793 (Cild I); 2025, № 11, maddə 1018) 28-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 28.1-ci bəndə "7.2-ci (ikinci halda)," sözlərindən sonra "9.0.5-ci," sözləri, "80.1-ci,"sözlərindən sonra "92.2.3-cü," sözləri əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 28.12-1-ci bənd əlavə edilsin:

"28.12-1. Məcəllənin 9.0.5-ci və 92.2.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi nəzərdə tutulur;".

6. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754, № 9, maddə 820, № 11, maddə 1018; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 588 nömrəli, 28 yanvar tarixli 593 nömrəli və 11 fevral tarixli 598 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 4-cü hissə üzrə:

6.1.1. 4.1-ci bəndə "445-1.4," rəqəmlərindən sonra "457.3," rəqəmləri əlavə edilsin;

6.1.2. aşağıdakı məzmunda 4.37-1-ci bənd əlavə edilsin:

"4.37-1. həmin Məcəllənin 457.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinəzərdə tutulur;";

6.2. 5.54-cü bənddə "457-cimaddəsində" sözləri "457.1-ci və 457.2-ci maddələrində" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (I kitab), maddələr 1294, 1295, (II kitab), maddə 1378; 2025, № 2, maddə 127, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 8, maddə 746, № 9, maddə 820; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 yanvar tarixli 593 nömrəli və 11 fevral tarixli 598 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 15.0-cı bəndində "457" rəqəmləri "457.1, 457.2" rəqəmləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 588 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 48-3-cü hissə əlavə edilsin:

"48-3. Məcəllənin 457.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

48-3.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi adından - bu Siyahının 16.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

48-3.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından - bu Siyahının 46.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.".

9. Bu Fərmanın 1-ci və 3-8-ci hissələri Azərbaycan Respublikasının "Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi"nə qoşulduğu gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 mart 2026-cı il*

## Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 80 — Bakı şəhəri, 16 mart 2026-cı il

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2026-cı il 1iyul saat 06:00-dək uzadılsın.

2. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209(Cild I); 2024, № 3, maddə 308, № 6 (II kitab), maddə 732, № 9, maddə 1103, № 12 (II kitab), maddə 1450; 2025, № 3, maddə 295,№ 4, maddə 600, № 9, maddə 875, № 12 (II kitab), maddə 1252)1.1-ci bəndində "aprel" sözü "iyul" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# DİN-də xidmətə qəbul üçün növbəti sıra baxışı keçirilib



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 16-da respublikanın şəhər, rayon polis orqanları və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 129 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın prezidenti ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova XIII Qlobal Bakı Forumunda iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Bakı forumu, tədbir çərçivəsində aparılan müzakirələrin əhəmiyyəti barədə fikirlər səsləndirilib. Spiker Sahibə Qafarova indiki gərgin regional və beynəlxalq vəziyyət fonunda Azərbaycanın sülh və dialoq naminə göstərdiyi səyləri qeyd edərək, bu çərçivədə Qlobal Bakı Forumunun beynəlxalq ictimaiyyəti narahat edən bir çox məsələnin müzakirəsi baxımından mühüm platforma təşkil etdiyini vurğulayıb.

Tulia Akson da Qlobal Bakı Forumunun beynəlxalq platforma kimi mühüm əhəmiyyətə malik olduğunu qeyd edib. O, həmçinin Azərbaycan və Ermənistan arasında sülh prosesində Prezident İlham Əliyevin oynadığı mühüm rolu və təşəbbüslərini yüksək qiymətləndirərək, bunun dövlətlər arasında problemlərin həlli üçün bir model olduğunu bildirib.

Söhbət zamanı beynəlxalq əməkdaşlıq məsələləri də nəzərdən keçirilib. Azərbaycan Milli Məclisinin Parlamentlərarası İttifaq çərçivəsində fəal təmsilçiliyindən, bu beynəlxalq təşkilatla Azərbaycan parlamenti arasında əməkdaşlığın mövcud səviyyəsindən razılıq ifadə olunub. Həmçinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Parlamentlərarası İttifaq arasında da əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Çinin ölkəmizdəki səfiri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova martın 16-da Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lu Mey ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz arasında yüksək səviyyədə olan strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunaraq, Prezident İlham Əliyevin ötən il Çin Xalq Respublikasına dövlət səfərindən sonra əlaqələrimizin daha da inkişaf edərək, özünün ən yüksək səviyyəsinə qalxdığı vurğulanıb.

Söhbət zamanı parlamentlərimiz arasında əlaqələrin ölkələrimiz arasında münasibətlərin mühüm tərkib hissəsini təşkil etdiyi qeyd olunub, parlamentlərarası əməkdaşlığın, o cümlədən parlamentlərin dostluq qrupları və komitələri arasında əlaqələrin inkişafının əhəmiyyəti vurğulanıb. Həmçinin münasibətlərin daha da dərinləşdirilməsi istiqamətində gələcək imkanlar nəzərdən keçirilib.

Görüşdə həmçinin Azərbaycan və Çinin beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq etdikləri ifadə olunub, ölkələrimizin daim bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədikləri vurğulanıb.

*"Azərbaycan"*

# Azərbaycanla Qara Dəniz Ticarət və İnkişaf Bankı arasında əməkdaşlıq müzakirə edilib

**QDTİB-in prezidenti: Azərbaycanda əlverişli investisiya mühiti beynəlxalq maliyyə institutları üçün yeni imkanlar yaradır.**



Martın 16-da Azərbaycan Respublikasının maliyyə naziri, Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) Azərbaycan üzrə rəhbəri Sahil Babayev ölkəmizdə səfərdə olan QDTİB-nin prezidenti Serhat Köksalın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə QDTİB arasında əməkdaşlığın mövcud vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə olunub.

Nazir Sahil Babayev bankın Azərbaycanın iqtisadi inkişafına və Qara dəniz regionunda iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinə verdiyi töhfələri yüksək qiymətləndirib. Azərbaycanın QDTİB-in təsisçi üzvlərindən biri kimi bankın gələcək inkişafını dəstəklədiyini bildirən nazir qeyd edib ki, bank fəaliyyətə başladığı vaxtdan etibarən Azərbaycanda maliyyələşdirdiyi layihələrlə ölkədə özəl sektorun inkişafına və maliyyə sektorunun gücləndirilməsinə töhfə verib.

Eyni zamanda bildirilib ki, QDTİB Azərbaycanda yerli valyutada istiqraz buraxan ilk beynəlxalq maliyyə institutu olub və bank özəl sektorun maliyyələşdirilməsini dəstəkləmək məqsədilə 2019-cu ildə Bakı Fond Birjasında korporativ istiqrazlar yerləşdirib.

Görüşdə Azərbaycanın QDTİB Rəhbərlər Şurasına hazırkı sədrliyi də diqqət mərkəzində olub, bankın 2026-cı ilin iyul ayında Bakıda keçiriləcək növbəti illik toplantısının regional maliyyə əməkdaşlığının daha da möhkəmləndirilməsi baxımından mühüm platforma olacağı vurğulanıb.

Öz növbəsində, S.Köksal Azərbaycan ilə əməkdaşlığın bank üçün mühüm əhəmiyyət daşıdığını bildirərək ölkəmizdə həyata keçirilən iqtisadi islahatların və formalaşdırılmış əlverişli investisiya mühitinin beynəlxalq maliyyə institutları üçün yeni imkanlar yaratdığını bildirib. O, gələcək əməkdaşlıq çərçivəsində özəl sektorun inkişafının maliyyələşdirilməsi, kiçik və orta biznesin və maliyyə institutlarının dəstəklənməsi, regional ticarətin və nəqliyyat-logistika bağlantısının təşviqi, həmçinin dayanıqlı inkişaf və iqtisadi şaxələndirmə ilə bağlı layihələrin dəstəklənməsi istiqamətlərində əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını ifadə edib.

Görüş zamanı həmçinin bankın abunə kapitalının artırılması prosesində Azərbaycanın iştirakı, bankın idarəetmə strukturunda üzv ölkələrin balanslaşdırılmış coğrafi təmsilçiliyinin təmin olunması, eləcə də tərəflər üçün qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Qara Dəniz Ticarət və İnkişaf Bankı beynəlxalq dövlətlərarası maliyyə kredit təşkilatıdır. QDTİB iqtisadi inkişafı və regional əməkdaşlığı dəstəkləyir, üzv ölkələrdə dövlət və özəl sektorlarda layihələr üçün kreditlərin verilməsi, kredit xətlərinin açılması, investisiyaların və zəmanətlərin verilməsində və ticarətin maliyyələşdirilməsində iştirak edir.

# Şəxsi həyatın toxunulmazlığının qorunması gücləndirilir

**Rəqəmsal texnologiyalar və süni intellekt müasir cəmiyyətin ayrılmaz hissəsinə çevrilərək sürətlə inkişaf edir. Bu texnologiyalar müxtəlif sahələrdə yeni imkanlar yaratsa da, bəzi hallarda onların qanunsuz və zərərli məqsədlərlə istifadəsi də müşahidə olunur.**



Məhz buna görə bir çox ölkə bu sahədə hüquqi tənzimləmələrin yaradılmasına başlayıb. Azərbaycanda da süni intellekt texnologiyalarının yaratdığı risklərin qarşısını almaq məqsədilə qanunvericiliyə dəyişikliklər hazırlanıb.

Ötən həftə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələrinin birgə videokonfrans formatında keçirilən iclasında bununla bağlı Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəllədə, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə olunub. Layihə süni intellekt texnologiyalarından istifadə edilməklə reallığı əks etdirməyən foto, video və audiomaterialların hazırlanması və yayılması ilə bağlı hüquqi çərçivənin formalaşdırılması məqsədi daşıyır. Həmin halların qarşısının alınması məqsədilə qanunvericilikdə müvafiq hüquqi məsuliyyət mexanizmlərinin müəyyən edilməsi nəzərdə tutulur.

Bu gün informasiya mühiti əvvəlki illərlə müqayisədə tamamilə fərqli bir mərhələyə daxil olub. Süni intellekt vasitəsilə real insanın görüntüsünü və ya səsini təqlid edən materiallar hazırlamaq artıq texniki baxımdan çox asandır. Bu isə bəzən insanların şəxsi həyatına müdaxilə, ictimai rəyin manipulyasiyası və cəmiyyətdə çaşqınlıq yaradılması kimi problemlərə səbəb olur. Dünyada "deepfake" kimi tanınan bu texnologiya artıq informasiya təhlükəsizliyi üçün ciddi risklərdən biri hesab edilir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli həmin qanun layihəsinin əhəmiyyətindən bəhs edərək deyib: "Rəqəmsal texnologiyaların sürətli inkişafı və süni intellekt texnologiyalarının müxtəlif sahələrdə geniş tətbiqi informasiya mühitinin transformasiyasına, yeni innovativ imkanların yaranmasına şərait yaradır. Bununla yanaşı, qeyd olunan texnologiyaların yaratdığı imkanlardan qanunsuz və zərərli məqsədlərlə istifadə halları artır. Bu cür hallar şəxsi həyatın toxunulmazlığına müdaxilə, habelə ictimai rəyin manipulyasiyası və cəmiyyətdə çaşqınlıq yaranması baxımından həmin sahədə müvafiq hüquqi mexanizmlərin formalaşdırılmasını zəruri edir".

Məhz bu səbəbdən ölkəmizdə həmin sahənin hüquqi tənzimlənməsi istiqamətində addımların atılması gündəmdədir. Təklif olunan qanun layihəsinə əsasən, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə yeni 148-2 və 242-1-ci maddələrin əlavə edilməsi nəzərdə tutulur. Bu maddələrə görə, şəxsin razılığı olmadan onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt vasitəsilə reallığı əks etdirməyən foto, video və ya audiomaterialların hazırlanması və yayılması cinayət məsuliyyəti yaradacaq. Bu dəyişikliklər insanların şəxsi həyatının toxunulmazlığının qorunması baxımından mühüm addımdır. Həmçinin qanun layihəsi rəqəmsal dövrün çağırışlarına uyğun hüquqi çərçivənin formalaşdırılması istiqamətində əhəmiyyətlidir. Çünki texnologiya inkişaf etdikcə onun yaratdığı problemlər də dəyişir və dövlətlər bu prosesə uyğun yeni hüquqi mexanizmlər yaratmağa məcbur qalırlar.

Beləliklə, yeni dəyişikliklər vətəndaşların hüquqlarının qorunmasına və informasiya təhlükəsizliyinin güclənməsinə xidmət edəcək.

***Təhminə VERDİYEVA,***
*"Azərbaycan"*

# *Təxliyə prosesi davam edir:* Daha 4 Azərbaycan vətəndaşı İrandan təxliyə olunub



**"Astara" dövlət sərhədindən buraxılış məntəqəsi vasitəsilə İrandan təxliyə prosesi davam edir.**

AZƏRTAC xəbər verir ki, daha 4 Azərbaycan vətəndaşı sərhədi keçərək təhlükəsiz şəkildə ölkə ərazisinə təxliyə olunub.

Təxliyə edilən vətəndaşlar müvafiq sənəd yoxlanışı və digər prosedurların yerinə yetirilməsindən sonra aidiyyəti qurumların nəzarəti altında sərhəd-keçid məntəqəsindən buraxılıblar.

Hazırda sərhəd-keçid məntəqəsində təxliyə prosesi davam etdirilir.



# Konstitusiyaya mümkün dəyişiklik Ermənistanın iqtisadi gerilikdən çıxmasına ümid yaradır

**"Ermənistan konstitusiyasına ediləcək dəyişikliklər təkcə Bakı ilə İrəvan arasında uzunmüddətli sülhə deyil, həm də Ermənistan-Türkiyə münasibətlərində müsbət irəliləyişə yol aça bilər".**

AZƏRTAC xəbər verir ki, bu fikir türkiyəli ekspert Hakkı Ocalın martın 16-da "Milliyet" qəzetində dərc olunan məqaləsində yer alıb. Müəllifin fikrincə, Azərbaycan torpaqlarının işğalı dövründə ermənilər tərəfindən yerləşdirilmiş minaların partlaması nəticəsində minlərlə insanın həlak olması və yaralanması faktı göstərir ki, Ermənistanla münasibətlərdə son dərəcə ehtiyatla davranmaq lazımdır. "Mən hələ hər iki Qarabağ müharibəsi zamanı şəhid olmuş azərbaycanlıları yada salmıram", - deyə o yazır. Bununla belə müəllif vurğulayır ki, son dövrdə baş verən proseslər regionda uzunmüddətli sülhə ümid yaradır və Ermənistanın iqtisadi gerilik zolağından çıxması üçün imkan açır.

Ekspert Ermənistan iqtisadiyyatında təbii resursların çatışmazlığı, nəqliyyat infrastrukturunun zəifliyi və xarici investisiyaların aşağı səviyyədə olması kimi problemlərə diqqət çəkib.

H.Ocalın fikrincə, regionda münasibətlərin yaxşılaşması Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsinə də imkan verəcək ki, bu da Türkiyənin Azərbaycanla birbaşa əlaqə qurmasını təmin edəcək, Ermənistan üçün isə yeni və investisiyalarla zəngin bazarlara çıxış imkanı yaradacaq.

"Bu gün Ermənistanın gələcəyi ölkənin yeni əsas qanununun qəbul olunub-olunmamasından asılıdır. Həmin sənəd sülh yolu ilə inkişaf çərçivəsini müəyyənləşdirməli, revanşizmdən və ərazi iddialarından imtina etməyi nəzərdə tutmalıdır. Yalnız bu halda ötən ilin avqustunda Ağ Evdə ratifikasiya olunmuş sülh sazişinin həyata keçirilməsi mümkün olacaq. Azərbaycan nümayəndələri və şəxsən Prezident İlham Əliyev sülh danışıqlarının hər mərhələsində bunu açıq şəkildə bəyan edirlər. Görək, erməni seçiciləri bu "qapı"nı açmağa kömək edəcəklərmi?", - deyə məqalə müəllifi qeyd edir.

# Əlaqələndirmə Qərargahının növbəti iclası Xocavənd şəhərində keçirilib






**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Xocavənd şəhərində qərargahın növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Samir Nuriyev işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış prosesinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin və ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olduğunu bildirib. Deyib ki, bu proses yalnız ərazilərin fiziki baxımdan bərpasını deyil, həmin torpaqlarda həyatın yenidən qurulmasını, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasını və keçmiş məcburi köçkünlərin doğma yurdlarına ləyaqətli qayıdışını nəzərdə tutan kompleks yanaşmanı əhatə edir.

Qərargah rəhbərinin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə son illər həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərində əsas prioritet baza infrastrukturunun yaradılması olub. Elektrik enerjisi, qaz və su təchizatı infrastrukturunun yenidən qurulması, yolların, körpülərin və tunellərin inşası regionda həyatın bərpası üçün ilkin zəruri şəraiti formalaşdırıb. Hazırkı mərhələdə isə dövlət tərəfindən ayrılan resursların mühüm hissəsi yaşayış fondunun genişləndirilməsinə, fərdi və çoxmənzilli evlərin tikintisinə və bərpasına yönəldilir. Bununla yanaşı, məktəblər, uşaq bağçaları, tibb məntəqələri və dövlət xidmətləri mərkəzləri kimi sosial obyektlərin fəaliyyətlərinin təşkili paralel şəkildə həyata keçirilir. Qeyd olunub ki, bu yanaşma öz doğma torpaqlarına qayıdan keçmiş məcburi köçkünlərin ilk gündən normal həyat şəraitinə sürətli adaptasiyasına imkan verir.





İşğaldan azad edilmiş ərazilərdə bu günədək ümumilikdə 41 yaşayış məntəqəsinin tikilərək və bərpa edilərək istifadəyə verildiyini, həmin ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışının təmin olunduğunu vurğulayan qərargah rəhbəri görülən işlər nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 80 mindən çox insanın yaşadığını və fəaliyyət göstərdiyini iclas iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edilib ki, qarşıdakı dövrdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində köç prosesi daha da sürətlənəcək və "Böyük qayıdış" proqramının miqyası genişlənəcək.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə layihələrin icrası Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Proqramda nəzərdə tutulmuş tədbirlər ardıcıl şəkildə icra olunur, bu isə qarşıya qoyulan məqsədlərə mərhələli şəkildə nail olunmasına və bərpa-quruculuq prosesinin uğurla davam etdirilməsinə imkan yaradır.

S.Nuriyev vurğulayıb ki, məskunlaşmanın dayanıqlılığı birbaşa məşğulluq imkanlarının yaradılması ilə bağlıdır. Bu baxımdan yeni iş yerlərinin açılması, kənd təsərrüfatı, xidmət sektoru, istehsal, tikinti və logistika sahələrində fəaliyyət imkanlarının genişləndirilməsi, həmçinin sahibkarlığın təşviqi, investorların cəlb olunması və dəstək mexanizmlərinin tətbiqi mühüm əhəmiyyət daşıyır.





Qərargah rəhbəri tarixi, mədəni və dini abidələrin bərpasının Böyük qayıdış prosesinin mühüm istiqamətlərindən biri olduğunu qeyd edərək, bunun milli-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, habelə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülən işlər barədə məlumatlar təqdim olunub. Məskunlaşma, iqtisadi fəallığın artırılması, sahibkarlığın inkişafı və mədəni irsin bərpası istiqamətində aparılan işlərə dair məruzələr dinlənilib.





İclasın yekununda Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş strateji vəzifələrin səmərəli icrası üçün zəruri tədbirlərin vaxtında həyata keçirilməsinin vacibliyi vurğulanıb. Qeyd olunub ki, hər bir məsələ üzrə konkret addımlar atılmalı və verilmiş tapşırıqlar operativ şəkildə icra olunmalıdır.

Səfər çərçivəsində Əlaqələndirmə Qərargahının üzvləri Xocavənd rayonu ərazisində həyata keçirilən bərpa, infrastruktur və iqtisadi layihələrlə, o cümlədən Xocavənd şəhəri və Hadrut qəsəbəsinin Baş planları ilə tanış olublar. Xocavənd şəhərində təmir olunmuş fərdi evlərə, Hadrut qəsəbəsində ilk yaşayış məhəlləsinə və Quzeyxırman kəndində aparılan təmir-bərpa işlərinə əyani baxış keçirilib. Həmçinin Hadrutda turizm inkişaf konsepsiyası təqdim olunub, təmir edilməsi nəzərdə tutulan mehmanxana layihəsi ilə bağlı məlumat təqdim edilib.





Xocavənd rayonunda bağçılıq təsərrüfatına və Qırmızı Bazar qəsəbəsində yerləşən günəbaxan yağları zavoduna baxış keçirilib, müəssisənin fəaliyyəti və yerli iqtisadiyyata verdiyi töhfə haqqında məlumat dinlənilib.

Səfər zamanı Hadrut məscidi ziyarət edilib, Azıx mağarasının infrastrukturunun inkişaf konsepsiyası təqdim olunub və ərazidə aparılan arxeoloji tədqiqatlar barədə məlumat verilib.



# İLHAM ƏLİYEV: «SÜLHDƏN YAXŞI HEÇ NƏ OLA BİLMƏZ»

* Dünya od-alova bürünüb.
* Dünya bir-birini qırır.
* Dünya dağılır, mövcud olanları sıradan çıxarır.
* Dünya dövlətləri bir-birləri ilə silah gücünə danışırlar.

*Bundan dövlətlər nə qazanır?*
*Bundan insanlar nə qazanır?*
*Bundan dünyanın özü nə qazanır?*

**Ortada heç bir qazanc yoxdur.**

*Müharibəyə başlayan da uduzur.*
*Güclü tərəf də çox şey itirir.*

Müdafiə olunaraq itkilərə məruz qalanlar isə daha acınacaqlı vəziyyətə düşürlər.

**İsrail-Həmas müharibəsində Fələstin xalqı nə günə düşdü...**

* Minlərlə qadın, uşaq, qoca dağıntılar altında qalaraq həlak oldu.
* Minlərlə insan yaralandı, evsiz-eşiksiz qaldı.
* Minlərlə dinc sakin aclıqdan, dərmansızlıqdan ölüb getdi.

*Hələ də yaxşılığa doğru dönüş, işıq ucu görünmür...*

**Rusiya ilə Ukrayna əsrlərin qardaşlığına son qoyaraq açıq düşmənçiliyə keçdilər.**

*Rusiya Ukraynanın Avropa İttifaqına üzvlüyünü, NATO-nun onun sərhədlərinə doğru genişlənməsini qəbul etmək istəmədi.*

* Dörd il öncə səslənən silahlar hələ də susmayıb.
* Dörd ildir ki, iki slavyan xalqı bir-birinin qanını axıdır!
* Dörd ildir şəhərlər, kəndlər dağıdılır, insanlar öldürülür, əlil olur, ev-eşiklərini itirərək qaçqına çevrilirlər.

Ölənlərin, itkin və əsir düşənlərin dəqiq sayı-hesabı bilinmir.

**Bu müharibədə Rusiya nəsə qazanıbmı?**

*Əksinə, sanksiyalar bataqlığında boğulur, bütün iqtisadiyyatını hərbiləşdirərək mövcud vəsaitlərini silah-sursat istehsalına xərcləyir.*

**Ukrayna elə günə düşüb ki, onun dirçəlməsinə, yenidən qurulmasına neçə onillik gərəkdir.**

*Amma şəhərlər tikilsə də, insanları yenidən diriltmək, əlillərin əvvəlki sağlamlığını bərpa etmək mümkün olmayacaq.*

**ABŞ və İsrail İranın nüvə silahı istehsalına yol vermək istəmədilər.**

**Növbəti dəfə silaha əl atıldı.**

Qarşılaşan tərəflər bir-birlərinə daha güclü zərbələr endirmək, daha ağır itkilər yaşatmaqdan ötrü əllərindən gələni əsirgəmirlər.

*Böyük itkilər yaşayan İran digər dövlətləri də bu müharibəyə cəlb etmək niyyətilə neçə-neçə ölkəni raketlərlə, PUA-larla vurdu.*

**Hərbi əməliyyatları genişləndirmək, öz itkilərinə bütün dünyanı şərik etmək üçün Hörmüz boğazını bağladı.**

* İndi dünyanı enerji böhranı gözləyir.
* İndi dünyanı iqtisadi kataklizmlər gözləyir.
* İndi dünya dövlətlərini iqtisadi böhranlar, inflyasiya təhlükəsi gözləyir.

+ Bütün bunlar ona görə baş verdi ki, insanlar sözlə razılığa gələ bilmədilər.

+ Bütün bunlar ona görə baş verdi ki, insanlar danışıqlar masasında oturmaq istəmədilər.

+ Bütün bunlar ona görə baş verdi ki, tərəflər öz mövqeyindən dönmək istəmir, öz iradəsini qarşısındakına zorla qəbul etdirməyə çalışırlar.

+ Bütün bunlar ona görə baş verdi ki, dünya dövlətlərində bir "mənəm-mənəmlik" mərəzi var, hərə öz bildiyinin ən doğru, ən obyektiv, ən ədalətli olduğunu düşünür və azacıq da olsa, güzəştə getmək istəmir.

**Amma hamının çox gözəl bildiyi bir həqiqət və reallıq da var:**

**Gec, ya tez bütün müharibələr danışıqlarla başa çatır.**

*Nə qədər qan tökülsə də, nə qədər dağıntılar baş versə də, sonda insanlar yenə danışıqlar masasına gəlirlər.*

Kimin qalib gəlməsindən, kimin məğlubiyyətə uğramasından asılı olmayaraq, sonda sülh razılaşması baş tutur.

**Bunu qoca dünyanın əsrlər boyu topladığı təcrübə də təsdiq edir.**

**Amma yenə heç kəs keçmişə baxaraq nəticə çıxarmaq, münaqişələri və mübahisələri əvvəlcədən sülh yolu ilə nizama salmaq istəmir.**

❖ ❖ ❖

**Son 80 ildə Azərbaycan kimi qalib dövlət olmayıb!**

Arxasında güclü dövlətlər dayanan, onu siyasi cəhətdən dəstəkləyən, beynəlxalq qurum və təşkilatlarda maraqlarını müdafiə edən, maliyyələşdirən, pulsuz silah-sursatla təmin edən ölkələrin cidd-cəhdlərinə baxmayaraq, 44 gündə Ermənistan ordusunu məhv edərək qarşısında diz çökdürdü, ona kapitulyasiya aktını imzalatdırdı!

*Amma məsələ bununla da bitmədi.*

Düşmən imzaladığı üçtərəfli Bəyanatın şərtlərinə əməl etmədi.

Revanşist niyyətlərə düşdü.

Yenidən silahlanmağa, qisasa hazırlaşmağa başladı.

**Ermənistanın verdiyi sözdən döndüyünü görən Müzəffər Ali Baş Komandan İlham Əliyev yenidən "dəmir yumruğ"unu işə saldı!**

* Azərbaycan ərazi bütövlüyünü təmin etdi!
* Azərbaycan Dövlət Suverenliyinə və konstitusiya əsaslarının bərpasına nail oldu!
* Azərbaycan qondarma, separatçı qurumları ləğv etdi!
* Azərbaycan Rusiya sülhməramlı kontingentini öz ərazilərindən çıxardı!
* Azərbaycan separatçı qurumların rəhbərlərini və ölkəmizə qarşı müxtəlif cinayətlərin törədilməsinin iştirakçılarını açıq şəkildə mühakimə edərək qanunla cəzalandırdı!
* Azərbaycan bir nəfər belə separatçının və əcnəbi əsgərin olmadığı ölkəyə çevrildi!

❖ ❖ ❖

**Azərbaycanın qələbəsi tam, qəti və şəksiz olsa da, yenə sülh təşəbbüsü ilə ilk olaraq çıxış etdi!**

Beynəlxalq hüququn təməl prinsiplərini özündə əks etdirən sülh müqaviləsi hazırlayaraq imzalanması üçün Ermənistan tərəfinə təqdim etdi.

*8 avqust 2025-ci ildə sülh sazişinin bəndləri Vaşinqtonda, ABŞ Prezidenti D.Trampın iştirakı ilə paraflandı.*

**Yeganə maneə Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmamasıdır.**

Bu baş tutandan sonra digər əngəl yoxdur.

*Əslində, Azərbaycan daim sülh tərəfdarı olub və münaqişənin danışıqlar yolu ilə başa çatmasını istəyib!*

Lakin havadarlarına və müdafiəçilərinə arxalanan Ermənistan Azərbaycandan yeni ərazilər qopararaq özünə birləşdirmək fikrindən heç zaman əl çəkməyib.

Hətta Azərbaycanın "ən yüksək status" təklifi və güzəşti ilə də razılaşmayıb.

"Miatsum" deyə bağıranlar gec-tez güzəştə gedəcəyimizi düşünürdülər.

**Lakin İlham Əliyevin mövqeyi qəti və dönməz idi:**

*Azərbaycan bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcəkdir!*

*Getmədi də!*

30 il özünü qalib sayan, Azərbaycan torpaqlarında separatçı rejim yaradaraq qondarma respublika quran və mənfur niyyətinə çatdığını güman edən Ermənistanın aqibəti necə oldu?!

* Monoetnik respublikaya çevrildi;
* Əhalisi dilənçi vəziyyətinə düşərək ölkəni tərk etdi;
* İşsizlik və yoxsulluq ən yüksək səviyyəyə çatdı;
* Anaları oğulsuz qoyaraq Yerablur adlı bir məzarıstanlıq yaratdılar;
* Dünyadan nə qədər erməni yığsalar da, işğal ərazilərini məskunlaşdıra bilmədilər;
* Yaşayış məntəqələrini, qəbiristanlıqları, dini və mədəni abidələri dağıdaraq bayquşlar kimi xarabalıqlarda yaşadılar;
* Dünya erməniliyinin ianələri hesabına böyük sərvət toplayan "Miatsum" liderləri və Ermənistan rəhbərləri özləri sərvət sahiblərinə çevrilsələr də, erməni xalqı bu "ideya"dan çox itkilərə məruz qaldı.

Özgə torpağına yiyələnmək və öz torpaqlarını işğaldan azad etmək uğrunda mübarizədə və müharibədə Ermənistan da, Azərbaycan da çox itkilər verdi.

*İtkilər fərqi yekun nəticədə daha aydın görünür:*

**Azərbaycan qalib dövlətə çevrilərək ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa etdiyindən onun itkiləri özünü doğruldur.**

Ermənistan isə xülyaya qapıldığından Azərbaycan atalar sözlərində deyildiyi kimi, "Əli aşından da oldu, Vəli aşından da".

*Nə mifik Ermənistan qura bildi, nə forposta çevrildiyindən əsl müstəqilliyinə nail oldu, nə də maddi, mənəvi və insan resursları itkisinə bəraət qazandıra bilir.*

❖ ❖ ❖

* Bu gün Cənubi Qafqazı sülh və əməkdaşlıq bölgəsinə Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u çevirir!
* Bu gün Cənubi Qafqazı sülh və əməkdaşlıq bölgəsinə cənab İlham Əliyevin müdrik və uzaqgörən siyasəti çevirir!
* Bu gün Cənubi Qafqazı sülh və əməkdaşlıq bölgəsinə cənab İlham Əliyevin neçə illər öncə reallaşdırdığı transmilli layihələr, hamıya fayda gətirən nəqliyyat dəhlizləri və onların seqmentləri çevirir!

**Azərbaycan cəmi 44 gün davam edən müharibədə 30 illik işğala son qoyaraq çox böyük nəticəyə nail oldu!**

**Azərbaycan ikiillik sülh dövründə quruculuq sahəsində görünməmiş uğurlara imza atıb!**

Diqqəti Azərbaycan Prezidenti İlham Əliyevin dünya və insanlar üçün sülhün dəyərini əks etdirən müdrik fikirlərinə yönəldirik:

*"2023-cü ilin sentyabrından Ermənistanla son qanlı hərbi toqquşmadan 2025-ci ilin avqustunda sülhə nail olmağımızdan iki ildən az vaxt keçir. Düşünürəm ki, əgər hər iki tərəf siyasi iradəni və sülhə sadiqliyini nümayiş etdirərsə, bu, dövlətlərin və xalqların barışığına dəlalət edən ən yaxşı göstəricidir. Sülhdən yaxşı heç nə ola bilməz. İnanın mənə, müharibə şəraitində yaşamağın və ya müharibə etməyin nə olduğunu bilirik. Ona görə bizim kimi ölkələr ola bilsin, sülhü hər hansı digər ölkədən daha çox dəyərləndirir".*

*"Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq. Beləliklə, biz dünya miqyasında nadir bir təcrübəyə malikik - milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi. Təqribən 30 il ərzində ərazimizin təxminən 20 faizi işğal altında olmuşdur. Biz beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə lazımi diqqətin göstərilməməsindən və münaqişə ilə məşğul olmalı olan bəzi beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkirdik".*

*"Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi".*

*"Biz Ermənistanla sülhü yalnız kağız üzərində əldə etməmişik, sülh sazişi yeddi ay əvvəl parafландı və birgə bəyanat qəbul olundu. Lakin biz artıq real həyatda sülhü təmin etmişik. Sərhədimizdə sakit vəziyyət hökm sürür, atəş açılmır, artıq heç bir qurban və itki yoxdur".*

*"Biz gücdən istifadə edərək sülhə nail olduq və bu gün bunu nümayiş etdiririk".*

❖ ❖ ❖

**Bəli, Azərbaycan, həqiqətən də, sülhün hər günündən daha səmərəli və bacarıqla istifadə edir.**

*Həm də iki mühüm istiqamətdə:*

* Böyük qayıdışla bağlı nəhəng quruculuq işləri apararaq keçmiş məcburi köçkünləri doğma yurd-yuvalarına qaytararaq xoş və firavan həyatlarını təmin etməklə.
* Bu gün dünyanın daha çox ehtiyac duyduğu Orta dəhlizi işə salmaqla.

**Böyük qayıdışla bağlı statistik göstəriciləri yığcam şəkildə təqdim edirik:**

* İndiyədək 29 min 842 nəfər keçmiş məcburi köçkün yurduna qayıdıb;
* Hazırda 75 minə yaxın vətəndaşımız işğaldan azad edilmiş ərazilərdə daimi yaşayır, işləyir və təhsil alır;
* 9 şəhər, 3 qəsəbə, 29 kənddə məskunlaşma təmin olunub;
* İşğaldan azad edilmiş ərazilərdə müxtəlif proqramlar çərçivəsində ümumi uzunluğu 3720,5 km olan 64 istiqamətə avtomobil yolunun tikintisi icra edilir. 2020-ci ildən indiyədək ümumi uzunluğu 1338,4 km olan 17 avtomobil yolunun tikintisi tam başa çatdırılıb;
* Qarabağ və Şərqi Zəngəzurda ümumi gücü 320 meqavatdan çox olan 39 su-elektrik stansiyası tikilib. Bu stansiyalardan 14-ü Kəlbəcərdə, 11-i Laçında, 10-u Ağdərədə, 4-ü isə Zəngilanda yerləşir;
* Hazırda Qarabağ və Şərqi Zəngəzurun enerji tələbatı tam şəkildə bu stansiyalarda istehsal olunan "yaşıl enerji" vasitəsilə ödənilir və istehsal olunan enerjinin artıq qalan 60 faizi ölkənin ümumi enerji sisteminə ötürülür. Bu ərazilərdə istehsal olunan "yaşıl enerji"nin maya dəyəri digər stansiyalarla müqayisədə 3-5 dəfə aşağıdır;
* 5 il ərzində "Azərenerji" tərəfindən 12 yerdə 330 və 110 kilovoltluq yarımstansiyalar inşa edilib, 1000 kilometrdən çox ötürmə xətti çəkilib, bölgənin dairəvi enerji təchizatı sistemi qurulub. Bundan əlavə, rəqəmsal idarəetmə mərkəzləri yaradılıb və müasir innovativ texnologiyalar tətbiq olunub;
* 9 yeni su anbarının bərpası və tikintisi nəzərdə tutulub. İndiyə qədər onlardan 5-i istismara verilib;
* Ağdamda Sənaye Parkı, Cəbrayılda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı, Laçın Aqro-Sənaye Parkı, Zəngilan rayonunda "Dost Aqropark" fəaliyyətə başlayıb;
* Üç hava limanı (Füzuli, Zəngilan, Laçın) istifadəyə verilib;
* 2026-cı ilin sonuna qədər təxminən 140 min keçmiş məcburi köçkünün azad edilmiş ərazilərə yerləşdirilməsi planlaşdırılır;

❖ ❖ ❖

**Bölgədə yaranan yeni vəziyyətdə Azərbaycan yenə sülhsevər, humanist siyasətinə sadiq qalır.**

*ABŞ, İsrail, İran müharibəsi dünya üçün yaxşı heç nə vəd etmir.*

*Müharibənin ilk günlərindən müxtəlif ölkələrdə qalan insanlar, diplomatik korpusun nümayəndələri böyük çətinliklər və həyati təhlükə ilə üzləşdilər.*

*Azərbaycan bəlalərinə mümkün olan köməyi göstərdi:*

Dövlət başçısının göstərişi ilə müharibə təhlükəsi ilə üzləşən, hava əlaqələrindən məhrum olan digər ölkə vətəndaşlarının və diplomatik korpus üzvlərinin təhlükəsiz şəkildə İrandan çıxarılmaları üçün sərhəd qapılarını açaraq altmışdan çox ölkə vətəndaşlarına hər cür yardım olundu.

Xaricdə qalan öz vətəndaşlarımızın təhlükəsiz şəkildə geri qayıtmalarına şərait yaradıldı.

İran diplomatlarının xaricdən ölkəyə gətirilməsi üçün pulsuz təyyarə ayrıldı.

İrana humanitar yardım göstərildi və Rusiyadan bu ölkəyə göndərilən köməyin çatdırılmasına lazımi dəstək verildi.

**Bəli, Azərbaycan Prezidenti cənab İlham Əliyev möhtəşəm hərbi əməliyyatlar keçirərək düşməni diz çökdürməyi, torpaqları işğaldan azad edərək geniş quruculuq meydanına çevirməyi də, sülh və əmin-amanlıq gətirdiyi bölgəni Azərbaycanın dostları və strateji tərəfdaşları üçün faydalı məkana çevirməyi də məharətlə bacarır!**

Əsl siyasət də, dövlətə, xalqa və insanlığa dəyərli xidmət də budur!

**Bəxtiyar SADIQOV**

# Naxçıvan türk dünyasının bütövlüyünün rəmzinə çevriləcək



**Kiçik Qafqazın cənub-qərbində yerləşən, qədim tarixə, zəngin mədəniyyətə və strateji əhəmiyyətə malik qədim türk diyarı Naxçıvan Azərbaycanın ayrılmaz tərkib hissəsidir. "Şərqin qapısı" adlandırılan bu diyar Türkiyə və İranla həmsərhəddir, türk dünyasına açılan qapı və islam mədəniyyətinin mərkəzlərindən biridir.**

Birinci Dünya müharibəsindən sonrakı mərhələ dünyanın yenidən bölüşdürülməsi və kataklizmlər dövrü kimi tarixdə qaldı. Çar Rusiyasının dağılması, onun yerində müstəqil dövlətlərin yaradılması fonunda Cənubi Qafqaz və Azərbaycan dünyanın diqqət mərkəzində olan bölgəyə çevrildi. ABŞ Prezidenti Vudro Vilsonun ermənilərin təsiri altında Qərbi Azərbaycan torpaqlarında yaradılmış Ermənistan dövlətinin ərazilərini genişləndirmək cəhdləri və ermənilərin soyqırımına məruz qalması haqqında təbliğat nəticəsində 1919-cu ilin yayında əraziyə ABŞ-dən general-mayor Jeyms Harbordun rəhbərliyi altında böyük bir heyət göndərildi. Sözügedən heyətin həm Anadoluda, həm Qərbi Azərbaycanda, həm də Naxçıvanda və Azərbaycanın digər bölgələrində apardıqları araşadırmalardan sonra hesabat hazırlandı. Yeri gəlmişkən, general Harbord 1919-cu il oktyabrın 5-də aralarında 3 nəfər generalın da olduğu 18 nəfərlik heyətlə Bakıya gəldi, Baş nazir N.Yusifbəyli və hökumətin digər üzvləri ilə geniş söhbətlər apardı. General-mayor Jeyms Harbordun hazırladığı hesabat əsasında həqiqətlər üzə çıxdı. Ermənilərin burada soyqırımına məruz qalması deyil, əksinə, müsəlman və türk əhalisinin kütləvi şəkildə qətlə yetirildiyinin şahidi olduqlarını qeyd etdilər.

1918-ci ilin noyabrında Azərbaycan Xalq Cümhuriyyətinin və Osmanlı hökumətinin dəstəyi ilə Naxçıvan, İğdır, Ordubad və Şərur-Dərələyəz mahalları, həmçinin Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və digər əraziləri əhatə edən Araz Türk Cümhuriyyətinin elan edilməsi də Naxçıvanın nə dərəcədə əhəmiyyətli bir strateji mövqedə olmasının göstəricisi idi. Çox qısa müddətdə mövcud olmuş bu respublika bölgədə yaranmış vəziyyətlə bağlı öz fəaliyyətini dayandıraraq 1918-ci il noyabrın 30-da qurulmuş Cənub - Qərbi Qars Cümhuriyyətinin, onun süqutundan sonra isə Azərbaycan Xalq Cümhuriyyətinin tərkibinə daxil olmuşdur.

Hələ XX əsrin əvvəllərində ABŞ Prezidenti V.Vilson Cənubi Qafqazda möhkəmlənmək və Naxçıvanı ermənilərin nəzarətinə vermək planını gerçəkləşdirmək üçün Naxçıvan və Şərur-Dərələyəz ərazisində ABŞ general qubernatorluğu yaratmağa çalışırdı. General qubernatorluğunun yaradılması Qafqazda nüfuz dairəsi qazanmağa çalışan ABŞ-nin əlverişli strateji mövqedə yerləşən Naxçıvan bölgəsində möhkəmlənmək planları Antanta dövlətlərinin Ermənistana ali komissar təyin etdikləri amerikalı polkovnik Vilyam Haskelin 1919-cu il oktyabr ayının 29-da Naxçıvanda Amerika general-qubernatorluğunun yaradıldığını bildirmiş və bu məqsədlə 9 maddədən ibarət qərar verməşdi. "Haskel layihələri" adlandırılan bu sənəddə Azərbaycan torpaqları olan Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əlahiddə bitərəf zona elan edilməsi və bu ərazilərdə elan olunmuş Naxçıvan general-qubernatorluğunun yaradılması nəzərdə tutulurdu.

V.Haskelin Azərbaycan və daşnak Ermənistanı hökumətlərinə göndərdiyi direktivdə göstərilirdi ki, AXC hökuməti Azərbaycan xalqının, o cümlədən Naxçıvan əhalisinin mənafeyinə zidd olan bu layihələri qətiyyətlə rədd etdi və onların gerçəkləşməsinə imkan verməyəcəyini bildirdi.

Haskelin müavini polkovnik Ceyms Rey 1919-cu il oktyabrın 24-də Naxçıvana gəldi və Müsəlman Milli Şurası qarşısında V.Haskelin bəyanatını elan edərək, qubernatorluğun yaradıldığını, ABŞ ordusunun mühəndisi polkovnik Edmund L.Dellinin ona başçı təyin olunduğunu bildirdi. Ermənistan-daşnak hökumətinin razılıqla qarşıladığı bu bəyanat Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qəti etirazı və Naxçıvan əhalisinin ciddi müqaviməti ilə üzləşdi. Naxçıvan Milli Şurasının və bütün Naxçıvan əhalisinin təkidi ilə Ceyms Rey qərarını dəyişməyə məcbur oldu. Delli Naxçıvanda general-qubernator kimi deyil, Antanta ali komissarı V.Haskelin nümayəndəsi kimi qaldı. 1920-ci ilin yanvarında sonuncu Amerika əsgəri Naxçıvan torpağını tərk etdi. Beləliklə, bölgə əhalisinin güclü müqaviməti və inadlı mübarizəsi, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ciddi diplomatik səyləri bu təxribat aktının qarşısını vaxtında aldı və ermənilərin Naxçıvanı ABŞ-nin yardımı ilə ələ keçirmək niyyətini növbəti dəfə puça çıxardı.



AXC-nin süqutundan sonra Naxçıvanın Azərbaycanın, yaxud Türkiyənin tərkibində qalması ilə bağlı fikir ayrılıqları da tarixdə öz əksini tapıb. Naxçıvan əhalisinin mövqeyi burada həlledici rol oynayıb. Nəhayət, Moskva və Qars müqavilələri ilə 3-cü tərəfə güzəştə getməmək şərti ilə Naxçıvan Türkiyənin təminatı ilə Azərbaycanın tərkibinə verilib. Sovetlər dönəmində formal müstəqillik olduğu üçün Naxçıvan beynəlxalq münasibətlər sistemində demək olar ki, heç bir funksionallıq kəsb etməyib.

Naxçıvanın tarixindən danışarkən bağlanmasından yüz ildən çox vaxt keçməsinə baxmayaraq, tarixi əhəmiyyətini itirməyən Qars müqaviləsinə toxunmaya bilmərik.

Qars müqaviləsi 16 mart 1921-ci ildə Rusiya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə Böyük Millət Məclisi (1923-cü ildə qurulacaq Türkiyə Cümhuriyyətinin sələfi) arasında bağlanmış Moskva sülh müqaviləsinin tələblərinin yerinə yetirilməsi çərçivəsində həmin il 13 oktyabr 1921-ci il tarixdə Azərbaycan, Ermənistan və Gürcüstan SSR ilə Türkiyə arasında Qars şəhərində imzalanan sülh müqaviləsidir. Müqavilə 11 sentyabr 1922-ci ildə qüvvəyə minmişdir və müddətsizdir.

Qars müqaviləsinin tarixi hüquqi əhəmiyyətinə qiymət verərkən Naxçıvan Muxtar Respublikasının məhz Azərbaycanın tərkibində qalmasına hüquqi zəmin yaratmasını xüsusilə qeyd etməliyik. Heç kimə sirr deyil ki, zaman-zaman ermənilər Naxçıvan Muxtar Respublikasına qarşı ərazi iddiaları ilə çıxış ediblər. Əsrin əvvəllərində bu cəhdlər intensiv şəkildə irəli sürülmüş, lakin Naxçıvan əhalisinin ciddi müqaviməti və Türkiyə ilə bağlanmış Qars müqaviləsi nəticəsində bu cəhdlər uğursuz olmuşdur.

Ulu Öndər Heydər Əliyev Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusunun qorunub saxlanılmasında Qars müqaviləsinin əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: "Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olub. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".

Türkiyəli diplomat, sabiq səfir Şükrü Ələkdağın Ümummilli Lider Heydər Əliyevin Qars müqaviləsinə istinadla Ermənistan tərəfindən Naxçıvana planlaşdırılan irimiqyaslı hücumun qarşısının alınmasında rolundan danışarkən söylədiyi fikirlər çox maraqlıdır. Ş.Ələkdağ deyir: "Ermənistan 1992-ci il mayın 8-də Şuşanı işğal edən zaman paralel olaraq Naxçıvanın Sədərək bölgəsinə də hücum etmiş, erməni silahlı birləşmələri sərhədlərimizin 10 kilometrliyində hərbi əməliyyata başlamışdılar. O zaman rəhmətlik Heydər Əliyev Türkiyədən yardım istədi və Prezident Süleyman Dəmirəl bu tələblə bağlı hökumətin toplantısını çağırdı. Hökumət Qars və Moskva müqavilələrini nəzərə alaraq Ermənistan hökumətinə xəbərdarlıq etmək qərarına gəldi və Baş nazirin müavini Erdal İnönü Ermənistanın xarici işlər naziri ilə əlaqə yaradaraq bildirdi ki, bu hərəkətin cavabı çox ağır olacaq. O dövrün Quru Qoşunları komandanı da türk qoşunlarının hazır vəziyyətə gətirildiyini elan etdi və Ermənistan Naxçıvana qarşı hücumları dayandırmağa məcbur oldu. Bununla da Qars müqaviləsi Naxçıvanın Ermənistanın hücumlarından qorunmasında son dərəcə mühüm rol oynamışdır".

Qars müqaviləsi bağlandığı vaxtdan Ermənistanda birmənalı qarşılanmadı. Ermənilərin bir qrupu bu müqavilənin erməni xalqının iradəsini ifadə etmədiyini bildirdi. Onlar daha çox Sever müqaviləsinə üstünlük verirdilər. Təsadüfi deyil ki, o dövrlər "Sovet Ermənistanı" qəzeti kimi nəşrlərdə "Qars sülh konfransı" adlı yazılarda bu danışıqlar Ermənistanın müstəqilliyini möhkəmləndirə biləcək bir akt kimi qiymətləndirilsə də, əks mövqedə olan qüvvələr də az deyildi.

Həmin dövrlərdə Təbrizdə çap olunan erməni "Hayk" qəzetinin "Pərdə götürülmüşdür" adlı baş məqaləsində Qars müqaviləsinə mənfi münasibət sərgilənmişdir.

Beynəlxalq hüququn prinsiplərinə görə, Qars müqaviləsinin ləğvinə yönəlik cəhdlərin əsası varmı? Əlbəttə, birmənalı şəkildə demək olar ki, xeyr. Qars müqaviləsi müddətsiz bağlanmış çoxtərəfli müqavilədir. Beynəlxalq hüququn prinsiplərinə əsasən, müqaviləni imzalayan şəxslər dövlətləri tərəfindən mandat almışdılar və müqavilə ratifikasiya edilmiş, mübadiləsi həyata keçirilmişdir. Lakin Ermənistanın daha çox istinad etdiyi Sever müqaviləsi Qars müqaviləsindən fərqli olaraq, Türkiyə Böyük Millət Məclisi tərəfindən ratifikasiya edilməmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə işğaldan azad edilmiş Şuşa şəhərində türk dünyasının iki böyük şəxsiyyəti tərəfindən imzalanmış Şuşa Bəyannaməsində bir daha Qars müqaviləsinə sadiqlik öz təsdiqini tapmışdır.

1 fevral 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilən Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin preambulasında deyilir: "Azərbaycan Respublikası və Türkiyə Respublikası, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq, iki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək, 9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010- cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq, Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər" .

Türk dünyasının iki böyük lideri Heydər Əliyev və Süleyman Dəmirəl arasında bağlanmış 9 fevral 1994-cü il tarixdə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə" iki qardaş dövlətin mənəvi birliyini özündə ehtiva edən ilkin böyük hüquqi akt hesab olunmalıdır.

"Bir millət, iki dövlət" ideyasını Azərbaycan-Türkiyə qardaşlığının formuluna çevirən Ümummilli Lider Heydər Əliyevin hələ Naxçıvan Ali Məclisinə rəhbərlik etdiyi dövrdə Türkiyə ilə müstəsna münasibətlər qurmasının şahidi olmuşuq.

Müstəqilliyimizin əldə olunmasında Naxçıvanın müstəsna rolu danılmazdır. 1990-cı il yanvarın 19-da Naxçıvan MSSR Ali Soveti SSRİ-dən çıxmaq haqqında tarixi qərar qəbul etdi. Bu addım muxtar respublika əhalisinin müstəqillik arzusunun təzahürü idi. Ulu Öndər Heydər Əliyev 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi fəaliyyət göstərərək regionda siyasi və iqtisadi sabitlik yarada bildi. Onun 1993-cü ildə ölkə rəhbərliyinə qayıtması Azərbaycanın mərkəzi hakimiyyətindəki boşluqları aradan qaldıraraq Naxçıvanın erməni hərbi təcavüzündən qorunmasına və blokada şəraitindən çıxmasına kömək etdi. Müstəqilliyin təməl prinsipləri, o cümlədən üçrəngli bayrağın qəbulu, "sovet" və "sosialist" sözlərinin respublika adından çıxarılması kimi qərarlar məhz bu dövrdə həyata keçirildi. Dahi şəxsiyyət Heydər Əliyevin dövründə Naxçıvanın Türkiyə ilə münasibətləri xüsusi diqqət mərkəzində oldu. 1992-ci ildə Araz çayı üzərində inşa edilən "Ümid" körpüsü (Sədərək körpüsü) regionun iqtisadi və sosial əlaqələrini gücləndirdi. 1998-ci ildə imzalanan "sərhəd prosedurlarının sadələşdirilməsi" sazişi ilə ticarət və nəqliyyatın sadələşdirilməsi Türkiyənin hərbi və iqtisadi yardımının genişləndirilməsini təmin etdi.

Müstəqil Azərbaycana rəhbərliyi illərində Ümummilli Lider Naxçıvan Muxtar Respublikasından diqqət və qayğısını əsirgəmədi. Ulu Öndər hakimiyyətdə olduğu dövrdə 4 dəfə Naxçıvan Muxtar Respublikasına səfər etdi. Birinci səfər 1996-cı il oktyabrın 29-da, ikincisi 1999-cu il oktyabrın 10-da, digərləri isə 2002-ci il iyunun 15-də və həmin il avqustun 10-da reallaşdı.

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına Ulu Öndərin doğum günündə 10 may 2021-ci il tarixli səfəri təsadüfi deyildi. Dövlətimizin başçısının vurğuladığı kimi: "Tarixi Zəfərdən sonra bu, atamın birinci doğum günüdür. Ona görə mən hesab etdim ki, ənənəvi olaraq onun məzarını ziyarət edəndən sonra onun Vətəninə - Naxçıvana gəlim. Hesab edirəm ki, bu səfərin çox böyük rəmzi mənası var. Qeyd etdiyim kimi, mən 15-ci dəfədir ki, Naxçıvana gəlirəm. Amma ilk dəfə mayın 10-da Naxçıvandayam. Bu doğum günündə mütləq burada olmalıydım".

44 günlük Zəfər müharibəsinin memarı, müzəffər Ali Baş Komandan İlham Əliyev Naxçıvan Muxtar Respublikasının blokadadan azad edilməsi istiqamətində əvvəlcə 10 noyabr 2020-ci il tarixli Bəyannaməyə Naxçıvanla bağlı xüsusi bir maddəni - 9-cu bəndi salmaqla Naxçıvanın beynəlxalq nəqliyyat dəhlizinə çevrilməsinə zəmin yaratdı. Zəngilandan Naxçıvana dəmir yolu xəttinin və avtomobil magistrallarının tikintisi muxtar respublikada transmilli nəqliyyat proqramlarının və layihələrinin reallaşdırılmasına şərait yaradacaqdır ki, bu da Naxçıvanın geostrateji əhəmiyyətini daha da artıracaq. Bütün bunlar Ali Baş Komandanın dəmir iradə və diplomatik bacarığının nəticəsidir.

Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə Naxçıvan həm türk dünyasının bütövlüyünün rəmzinə çevriləcək, həm də bizim üçün Avropaya qapı olacaq. Zəngilan-Ordubad dəmir yolu xətti və Zəngəzur dəhlizinin (TRIPP) açılması üçün texniki imkanlar formalaşdırılıb. Vaşinqton paraflanmasından sonra Zəngilanı Naxçıvanla birləşdirəcək 40 kilometrlik Zəngəzur dəhlizinin (TRIPP) mütləq açılacağı heç kimdə şübhə doğurmur. Ölkəmizin rəhbərinin dediyi kimi, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq.

Prezident İlham Əliyev 10 mart 2026-cı ildə Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununu təsdiq etdi.

Sənədə əsasən, Naxçıvan Konstitusiyasına iki yeni maddə (maddə 3-1 və maddə 28-1) əlavə edilib, bir maddə (maddə 5) çıxarılıb. Həmçinin bir sıra maddələrdə və preambula hissəsində dəyişikliklər edilib. Preambula hissəsində Qars və Moskva müqavilələrinə istinad çıxarılıb.

Azərbaycan Konstitusiyasının 134-cü maddəsinin III hissəsində qeyd olunan Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ayılmaz tərkib hissəsi olması ilə bağlı müddəa Naxçıvan Muxtar Respublikası Konstitusiyasının preambulasında da öz əksini tapıb.

Konstitusiyaya əlavə edilən "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi" adlı 3-1-ci maddəyə əsasən, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Prezidentinin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanıdır və ona rəhbərliyi Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi həyata keçirir.

Digər maddə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin buraxılması" adlı 28-1-ci maddədir. Bu maddədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatın tələbi ilə və ya Konstitusiyanın müvafiq maddələrində göstərilən vəzifələri aradan qaldırıla bilməyən səbəblər üzündən icra edə bilmədikdə Azərbaycan Prezidenti tərəfindən buraxılması qeyd olunur.

Konstitusiya Qanununda dəyişikliklərdən biri də "Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi" adlı 5-ci maddənin çıxarılmasıdır.

Qanuna əsasən, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkiləri Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifləri əsasında Azərbaycan Prezidenti təyin edəcək (maddə 13, II hissə).

Bundan başqa, sənəddə Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Milli Məclisinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının qapalı iclasının keçirilə bilməsi nəzərdə tutulur (maddə 18, IV hissə).

Konstitusiya Qanununa əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər və Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının statusuna dair qanunlar 31 səs çoxluğu, qalan məsələlərə dair qanunlar isə 23 səs çoxluğu ilə qəbul ediləcək (maddə 24, II hissə).

Sənədə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilmək üçün Naxçıvan Muxtar Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşamaq tələbi aradan qaldırılacaq (maddə 29, II hissə).

Digər dəyişiklik Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyəti başçılarının Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilməsidir (maddə 32.4-1).

Konstitusiya Qanununa əsasən, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə tabe olmayacaq və iş qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyənləşdirəcək (maddə 34).

Sənəddə həmçinin "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Konstitusiya Qanununa uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin aktlarının artıq qərar deyil, sərəncam adlandırılması nəzərdə tutulub (maddə 33).

Qanuna əsasən, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında Konstitusiya qanunları yox, qanunlar qəbul ediləcək (maddə 50).

Naxçıvan MR Ali Məclisinin sədri Naxçıvan MR-nın ali vəzifəli şəxsi hesab edilirdi, həm qanunvericilik, həm də icra hakimiyyəti sahələrində geniş səlahiyyətlərə malik idi. Bu müddəanın çıxarılması ilə bu norma hakimiyyət bölgüsü prinsipinə uyğunlaşdırıldı.

Həmçinin Naxçıvan Muxtar Respublikasında icra orqanı statusunda Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin yaradılması məsələsi Konstitusiya səviyyəsində təsbit olunur. Yəni hazırda mövcud olan səlahiyyətli nümayəndəliyin statusu dəqiqləşdirilir.

Bundan başqa, Azərbaycan Konstitusiyasında təsbit olunmuş, lakin Naxçıvan MR Konstitusiyasında öz əksini tapmamış bəzi müddəalar da (müharibə şəraitində hərbi əməliyyatların aparılması, Naxçıvan MR Ali Məclisinə seçkilərin keçirilməsini mümkün etmədikdə Ali Məclisin çağırışının səlahiyyət müddətinin uzadılması, Ali Məclisin buraxılması və s.) Konstitusiyaya daxil edilir, ayrı-ayrı məsələlərin ifadə forması dəqiqləşdirilir.

*Naxçıvanın idarəetmə sisteminin, o cümlədən icra hakimiyyətinin təşkilində Azərbaycanın mərkəzi hakimiyyətinin rolu, xüsusən də Prezident institutunun rolu gücləndirilir. Başqa sözlə, Naxçıvanın müxtariyyət statusu və onun təminatları saxlanılmaqla, səlahiyyət dairəsi nisbətən məhdudlaşdırılır, muxtar respublikada hazırda mövcud olan hakimiyyət və idarəetmə mexanizmləri daha çox Azərbaycanın mərkəzi hakimiyyət sisteminə inteqrasiya edilir ki, bu, unitar dövlət və siyasi muxtariyyətin müasir konsepsiyasına və modelinə uyğundur. Naxçıvan Konstitusiyasına dəyişiklik bütövlükdə şəffaflığın, çevik idarəetmənin təmin olunması ilə bərabər, yerli idarəetmədə subyektiv amilləri aradan qaldıracaq.*

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***



# XIII Qlobal Bakı Forumunun çağırışları: *dialoq, əməkdaşlıq və təhlükəsizlik*

**Yaxın Şərqdə davam edən hərbi münaqişə, müasir beynəlxalq münasibətlər sistemində getdikcə artan gərginlik, geosiyasi parçalanma və etimad böhranı fonunda Azərbaycanın evsahibliyi ilə "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusuna həsr olunmuş XIII Qlobal Bakı Forumunun təşkili xüsusi əhəmiyyətli tarixi hadisə kimi yadda qaldı.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bütün dünyada sülh amalının, məsələlərə strateji baxışının, çətinliklərə dayanıqlı həllərin tapılması niyyətinin daha bir nümunəsu olan bu qlobal tədbir dünya miqyasında dialoqun və qarşılıqlı anlaşmanın zəiflədiyi bir vaxtda dövlət və hökumət rəhbərlərini, nüfuzlu siyasətçiləri, ekspertləri bir araya gətirərək ortaq problemlərin müzakirəsi üçün mühüm platformaya çevrildi. Əvvəlki forumlar kimi, XIII Qlobal Bakı Forumunun da əsas dəyəri müxtəlif baxışların toqquşduğu mürəkkəb beynəlxalq mühitdə dialoq mədəniyyətini təşviq etməsi, fikir ayrılıqlarının konstruktiv müzakirə yolu ilə aradan qaldırılmasına töhfə verməsidir.

### Qlobal çağırışlarla səsləşən müzakirələr

Forumun təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bu gün artıq qlobal miqyasda aktual problemlərin müzakirə olunduğu, onların həlli yollarının axtarıldığı və dünya ictimaiyyətinə təqdim edildiyi nüfuzlu beynəlxalq platforma kimi tanınmaqdadır. Prezident İlham Əliyevin himayəsi, mərkəzin təşəbbüsü ilə keçirilən tədbirlərə marağın ildən-ilə artması da məhz onun beynəlxalq miqyasda qazandığı nüfuz və etimadın göstəricisidir.

Forumun yaranma tarixçəsinə qısa ekskurs edək. Onun təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Prezident İlham Əliyevin sərəncamı ilə dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubileyi münasibətilə keçirilən tədbirlər çərçivəsində təsis olunub. 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin doğma şəhəri Gəncədə keçirilən xüsusi toplantıda belə bir mərkəzin yaradıldığı elan edilib. Qısa müddətdə fəaliyyətini genişləndirən mərkəz hazırda qlobal problemləri araşdırır, beynəlxalq ictimaiyyəti bu problemlərlə bağlı məlumatlandırır.

Öncə onu da qeyd edək ki, Azərbaycanın bu cür mötəbər qlobal tədbirlərə evsahibliyi və iştirakçıların sayının davamlı şəkildə artması ölkəmizə göstərilən diqqət və etimadın, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə beynəlxalq dəstəyin bariz ifadəsidir. Bu baxımdan "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusuna həsr olunmuş XIII Forumda dünyanın müxtəlif regionlarından nüfuzlu siyasi xadimlər, o cümlədən fəaliyyətdə olan və sabiq prezidentlər, Baş nazirlər, həmçinin BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlərin iştirakı təbii idi.

Forumda müzakirəyə çıxarılmış mövzular da müasir dünyamızın əsas çağırışları ilə səsləşirdi. "Qlobal təhlükəsizlik və güc tarazlığı: Beynəlxalq hüquqa hörmət. Yeni məsələlər, yeni çağırışlar", "Çoxtərəflilik böhran içində: Qlobal əməkdaşlığı yenidən düşünmək", "BMT 80+", "Çin və Qlobal İdarəetmə Təşəbbüsü", "Danışıqlardan kənarda: COP-u yaşatmaq uğrunda mübarizə", "Orta dəhliz və Avrasiya Bağlantısı Qapısı", "Afrika bu gün və sabah", "2030 gündəliyinin sürətləndirilməsi: İnklüziv inkişaf və davamlı əlaqəlilik", "Rəqəmsal gələcək: süni intellekt, idarəetmə və innovasiyanın etikası", "Mənzil üçün qlobal əməkdaşlıq: WUF13 üçün perspektivlər", "Beynəlxalq sistemini yenidən qurulmasının axtarışında" mövzularında təşkil olunmuş panellərdə parçalanmış mövcud mənzərənin müxtəlif sahələrdə necə təzahür etdiyi nəzərdən keçirildi. Hərbi güc, iqtisadi məcburiyyət, enerji asılılığı, texnoloji imkanlar, informasiya nəzarəti və strateji təchizat marşrutlarındakı təsirləri izləndi. Müzakirələr həmçinin yeni formalaşan sahələrin - kritik minerallar, təmiz enerji infrastrukturu, rəqəmsal bağlılıq və qabaqcıl texnologiyaların zəif tərəflərini necə dərinləşdirməsinə və dövlət siyasətini necə mürəkkəbləşdirməsinə diqqət yönəltdi.

### Prioritet təhlükəsizlik və sülhdür

Azərbaycan Prezidenti İlham Əliyevin proqram xarakterli çıxışı ilə bu qlobal tədbirin diqqətçəkən əsas mövzu istiqamətlərindən biri müasir dünyada təhlükəsizlik və sabitlik məsələlərinin prioritetliyi oldu. Dövlətimizin başçısı qeyd etdi ki, təhlükəsizlik olmadan inkişafdan və uzunmüddətli sabitlikdən danışmaq mümkün deyil. Son illər bir çox ölkənin ciddi geosiyasi risklərlə üzləşməsi göstərir ki, beynəlxalq təhlükəsizlik sisteminin möhkəmləndirilməsi hər bir dövlət üçün əsas prioritetlərdən birinə çevrilməlidir. Bu kontekstdə regional təhlükəsizlik məsələləri də xüsusi əhəmiyyət kəsb edir.

Forumda Azərbaycanın keçdiyi tarixi yol - torpaqlarımızın 20 faizinin işğalı dövründən suverenliyin bərpasına və sülhə doğru irəliləyiş də ayrıca diqqət mərkəzində oldu və bu, təsadüfi deyil. Uzun illər ərzində davam etmiş münaqişə və işğal şəraitində yaşayan Azərbaycanın beynəlxalq hüquqa əsaslanaraq ərazi bütövlüyünün bərpasına nail olması, bundan sonra regionda sülhün bərqərar olması istiqamətində təşəbbüslərlə çıxış etməsi təcrübəsi müasir beynəlxalq münasibətlər sistemində nadir nümunələrdən biri kimi qiymətləndirilir. Azərbaycan əvvəlcə öz suverenliyini bərpa etdi, daha sonra isə münaqişə tərəfinə sülh təklif edərək regionda yeni əməkdaşlıq mərhələsinin əsasını qoydu.

Bu təcrübə həm də göstərir ki, beynəlxalq hüquq normalarına hörmət edilmədikdə və beynəlxalq təşkilatların qərarları icra olunmadıqda münaqişələr illərlə davam edə bilər. Azərbaycan uzun illər ərzində beynəlxalq təşkilatların qəbul etdiyi qərarların kağız üzərində qalmasının nəticələrini yaşadı. Lakin son nəticədə ölkə öz hüquqlarını bərpa etməyə nail oldu və regionda yeni reallıq formalaşdı. Azərbaycan Prezidentinin forumda vurğuladığı kimi, bu gün Azərbaycan və Ermənistan arasında əldə olunmuş sülh regionda sabitliyin möhkəmlənməsi üçün yeni imkanlar açır. "Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur".

### Qlobal enerji xəritəsində Azərbaycanın güclənən strateji mövqeyi

Beynəlxalq Forum çərçivəsində müzakirə edilən digər mühüm mövzulardan biri də enerji təhlükəsizliyi idi. Bu bir reallıqdır ki, müasir dünyamızda enerji məsələləri artıq yalnız iqtisadi deyil, həm də strateji və siyasi xarakter daşıyır. Enerji bazarlarında baş verən kəskin qiymət dəyişiklikləri qlobal iqtisadiyyat üçün ciddi təhlükələr yaradır. Bu baxımdan enerji bazarında sabitliyin qorunması və balanslı siyasətin həyata keçirilməsi böyük əhəmiyyətə malikdir. Azərbaycan isə bu sahədə məsuliyyətli və etibarlı tərəfdaş kimi tanınır. Ölkəmiz həm neft, həm qaz, həm də digər enerji məhsullarının istehsalı və ixracı ilə qlobal enerji təhlükəsizliyinə mühüm töhfələr verir.

Son illər Azərbaycanın təbii qaz ixrac etdiyi ölkələrin sayının sürətlə artması da dövlətimizin bu sahədə artan rolunu göstərir. Enerji resurslarının etibarlı şəkildə beynəlxalq bazarlara çatdırılması bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bu isə Azərbaycanın qlobal enerji xəritəsində strateji mövqeyini daha da gücləndirir.

Forumun müzakirələrində nəqliyyat və logistika məsələləri də xüsusi yer tutdu. Qlobal münaqişələr və geosiyasi gərginliklər ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olduqca alternativ nəqliyyat dəhlizlərinin əhəmiyyəti daha da artır. Azərbaycan son illər enerji sektorundan əldə etdiyi gəlirləri nəqliyyat və logistika infrastrukturu layihələrinə yönəldərək regionu mühüm tranzit mərkəzlərindən birinə çevirib. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində ölkənin fəal iştirakı qlobal tədarük zəncirlərinin dayanıqlılığının təmin edilməsinə mühüm töhfə verir. Prezident İlham Əliyev bu məsələ ilə bağlı çıxışında dedi: "Mövcud çağırışlar kontekstində bu gün əhatə etmək istədiyim üçüncü mövzu isə bağlılıqdır. Biz görürük ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır. Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir. Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirlər sayəsində nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşlıq və əslində, həm Orta dəhlizdə, həm də "Şimal-Qərb" dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır".

Eyni zamanda regionda sülhün bərqərar olması yeni nəqliyyat marşrutlarının yaradılması üçün də imkanlar açır. Ermənistan üzərindən keçə biləcək yeni tranzit istiqamətləri region ölkələri üçün qarşılıqlı faydalı əməkdaşlıq perspektivləri yaradır. Bu isə həm regional iqtisadi inteqrasiyanı gücləndirə, həm də daha geniş coğrafiyada ticarət və logistika əlaqələrinin inkişafına təkan verə bilər.

XIII Qlobal Bakı Forumu bir daha göstərdi ki, müasir dünyada dialoq və əməkdaşlıq alternativsizdir. Qlobal çağırışların artdığı bir dövrdə müxtəlif baxışların müzakirə olunduğu və ortaq həll yollarının axtarıldığı belə platformaların rolu daha da artır. Bakı artıq qlobal dialoq mərkəzlərindən birinə çevrilərək beynəlxalq münasibətlər sistemində mühüm intellektual və siyasi müzakirə platforması kimi çıxış edir.

Forumun əsas nəticələrindən biri də ondan ibarət oldu ki, sülh, sabitlik və təhlükəsizlik yalnız qarşılıqlı etimad və əməkdaşlıq yolu ilə təmin oluna bilər. Qlobal sistemin keçid mərhələsində olduğu indiki şəraitdə beynəlxalq ictimaiyyətin əsas vəzifəsi fikir ayrılıqlarını qarşıdurma deyil, dialoq və əməkdaşlıq vasitəsilə aradan qaldırmaqdır. XIII Qlobal Bakı Forumu məhz bu məqsədə xidmət edən mühüm beynəlxalq platforma kimi qlobal gündəliyin formalaşmasına mühüm töhfəsini verdi.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Sülhü təşviq edən platforma

**Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Qlobal Bakı Forumunun keçirilməsi artıq ənənəyə çevrilib. Forum beynəlxalq aləmdə nüfuzlu diplomatik bir platforma olaraq, mötəbər konfrans və tədbirlərlə eyni səviyyədə ölçülür.**

Bakı Dövlət Universitetinin kafedra müdiri professor Kamilə Əliyeva "Azərbaycan" qəzetinə bildirib ki, forumun artan nüfuzunun nəticəsidir ki, tədbirdə iştirak edən sabiq dövlət və hökumət başçılarının, nüfuzlu siyasətçilərin və beynəlxalq təşkilatların rəhbərlərinin sayı hər il artmaqdadır. Forumda olduqca aktual olan, eləcə də dünyada geosiyasi təlatümlərin getdikcə dərinləşdiyi global münaqişələrin həlli istiqamətində müzakirələr aparılaraq, təkliflər irəli sürüldü. "Forumun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev müasir dünyada hər bir dövlətin təhlükəsizliyini, müdafiə məsələlərini prioritet məsələ kimi xüsusi vurğuladı və ölkələrin suverenliyi və ərazi bütövlüyünün beynəlxalq prinsiplər çərçivəsində qorunmalı olduğunu qeyd etdi. Bu baxımdan Azərbaycanın beynəlxalq hüququn prinsiplərinə uyğun hərbi, siyasi və diplomatik yolla 30 il işğalda qalan torpaqlarını azad etməsi, suverenliyimiz və ərazi bütövlüyümüzün bərpa edilməsi dünya dövlətləri üçün bir örnəkdir. Dövlətimizin başçısı çıxışında torpaqlarımızın



30 illik işğalı dövründə təzyiqlərlə üzləşdiyi, ATƏT və onun qurumu olan Minsk qrupunun yarıtmaz fəaliyyəti haqqında da məlumat verdi. Minsk qrupu illərlə münaqişənin həll olunmasına deyil, əksinə, onun uzadılması, Azərbaycan torpaqlarının işğalda qalması üçün fəaliyyət göstərib. Azərbaycan yeganə dövlətdir ki, son onilliklərdə hərbi və siyasi yolla öz gücünə ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib və sülh təşəbbüsünü irəli sürüb. Prezident İlham Əliyev bütün beynəlxalq tədbirlərdə çıxışında Azərbaycan dövlətinin ədaləti, sülhü, əmin-amanlığı təşviq etdiyini bildirdi. XIII Qlobal Bakı Forumunda da ölkəmiz bu siyasətə sadiqliyini bir daha nümayiş etdirdi", - deyə o vurğulayıb.

Ekspert qeyd edib ki, Azərbaycan dünyaya münaqişələrin ən optimal həll yolunun müharibə aparan dövlətlərin siyasi iradəsindən asılı olduğunu sübut edib. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticəsidir ki, Azərbaycan və Ermənistan artıq sülh istiqamətində mühüm addımlar atıblar. Regionda sülhün daimi və dayanıqlı olması üçün Azərbaycan Ermənistana gedən bütün nəqliyyat komunikasiyalarını açıb. Bu həm də Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirən yolun açılmasına xidmət edir. Bu gün Azərbaycandan keçməklə Ermənistana yüklər daşınır, həmçinin Azərbaycan Ermənistana yanacaq məhsulları ixrac edir. Beləliklə, iki ölkə arasında ticarət əlaqələri qurulmağa başlanıb. Bu, Ermənistan iqtisadiyyatının inkişafına böyük təkandır.

K.Əliyeva vurğulayıb ki, Azərbaycan regionla yanaşı, beynəlxalq müstəvidə də siyasi və iqtisadi yüksəlişin bərpasında mühüm rol oynayan dövlətdir: "Artıq ölkəmiz dünyanın 16 dövlətinə təbii qaz ixrac edir ki, onların da 10-u Avropa dövlətidir. Azərbaycan bu dövlətlərin enerji təhlükəsizliyinə böyük töhfə verir. Müasir dünyada enerji təhlükəsizliyi milli təhlükəsizliyə bərabər tutulan bir amildir. Yaxın vaxtlarda Azərbaycanda istehsal olunacaq "yaşıl enerji" də Avropa dövlətlərinə ixrac ediləcək ki, bu da həmin dövlətlərin milli təhlükəsizliyinə böyük töhfə olacaq".

Ekspert sonda qeyd edib ki, XIII Qlobal Bakı Forumunda Azərbaycanın təqdim etdiyi sülh gündəliyi dünya üçün bir yol xəritəsi və davam edən müharibələrin sülh yolu ilə həlli istiqamətində önəmli tövsiyələrin irəli sürüldüyü bir platformadır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## *Yalçın RƏFİYEV:* "Azərbaycan Avrasiya regionunda qlobal diplomatiyanın mühüm mərkəzlərindən birinə çevrilir"

**"Azərbaycan bir çox qlobal əhəmiyyətli tədbirə evsahibliyi edir. 2024-cü ildə ölkəmizdə COP29 konfransı uğurla keçirilib. Bu ilin may ayında Bakıda Ümumdünya Şəhərsalma Forumunun XIII Sessiyası (WUF13) təşkil olunacaq. Daha sonra İslam İnkişaf Bankının illik toplantısı və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) zirvə toplantısı da məhz paytaxtımızda keçiriləcək. Bütün bunlar Azərbaycanın xüsusilə Avrasiya regionunda qlobal diplomatiyanın mərkəzlərindən birinə çevrildiyini göstərir".**



Bu fikirləri AZƏRTAC-a məxsusi müsahibəsində xarici işlər nazirinin müavini, COP29-un baş sözçüsü Yalçın Rəfiyev bildirib.

Nazir müavini qeyd edib ki, bu tədbirlər müxtəlif ölkələrin nümayəndələrini bir araya gətirməklə yanaşı, qlobal əhəmiyyət kəsb edən mövzuların müzakirəsi üçün mühüm platforma rolunu oynayır.

"Seçilən mövzular da qlobal əhəmiyyət daşıyır. Məsələn, XIII Bakı Qlobal Forumu çərçivəsində iqlim və şəhərsalma mövzularına həsr olunmuş tədbirlər keçirildi. Bu müzakirələr qlobal səviyyədə həmin istiqamətlər üzrə aparılan debatlara töhfə vermək məqsədi daşıyır", - deyə Yalçın Rəfiyev bildirib.

Nazir müavini əlavə edib ki, Bakıda keçirilən tədbirdə COP31-in sədri, Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurum, COP31 sədrliyinin yüksəksəviyyəli iqlim çempionu Səməd Ağırbaş da iştirak ediblər. Onun sözlərinə görə, səfərin əsas məqsədi COP31-in vizyonunu Azərbaycan ictimaiyyətinə, xüsusilə qeyri-hökumət təşkilatlarının nümayəndələri və gənclərə təqdim etmək, onların suallarını cavablandırmaq olub.

Y.Rəfiyev qeyd edib ki, belə görüşlər qarşıdan gələn COP konfranslarının və digər beynəlxalq forumların nəticələrinə töhfə verir və müzakirələrin daha da zənginləşməsinə xidmət edir.

Azərbaycan ilə Türkiyə arasında COP prosesi çərçivəsində sıx əməkdaşlıq qurulduğunu deyən nazir müavini bildirib ki, artıq bu ilin əvvəlindən tərəflər arasında intensiv koordinasiya aparılır.

"COP31 sədrliyi ilə artıq iki dəfə İstanbulda əlaqələndirmə görüşlərimiz keçirilib. Həm Türkiyənin COP31 sədrliyi, həm də hazırkı Braziliya sədrliyi ilə növbəti COP konfransları haqqında strategiyalar müzakirə olunub. Uğur əldə etməyin yolları və bu istiqamətdə birlikdə necə işləyə biləcəyimiz barədə fikir mübadiləsi aparılıb", - deyə nazir müavini vurğulayıb.

Yalçın Rəfiyevin sözlərinə görə, qarşıdakı dövrdə də tərəflər bu istiqamətdə sıx və intensiv əməkdaşlığı davam etdirəcəklər.

Nazir müavini həmçinin Türkiyə tərəfinin COP31 çərçivəsində gənclərin daha fəal iştirakını təmin etmək niyyətində olduğunu diqqətə çatdırıb. "Qarşıdan gələn COP-un gənclərin ən çox iştirak etdiyi konfranslardan birinə çevrilməsi məqsədi var. Bugünkü görüşdə iştirak edən gənclərin mövzuya marağı da göstərir ki, onların COP prosesində fəal iştirakı yekun nəticələrin daha uğurlu olmasına töhfə verir", - deyə Y.Rəfiyev əlavə edib.

## *Yeran LOVETTİ:* "Qlobal problemlərin müzakirəsi Azərbaycana yalnız nüfuz qazandırır"

**"XIII Qlobal Bakı Forumu beynəlxalq məsələləri müzakirə etmək üçün çox yaxşı platformadır və bu platforma fəal şəkildə fəaliyyət göstərir. Burada iştirak edən nüfuzlu şəxslərin fikirləri beynəlxalq ictimaiyyət üçün əhəmiyyətlidir. Müzakirə olunan problemlər bu gün dünyada hər bir insanı düşündürür. Azərbaycan qlobal xarakter daşıyan məsələləri müzakirə etmək məqsədilə belə mühüm tədbiri keçirməklə dünyanın bir parçası olduğunu göstərir, eyni zamanda beynəlxalq nüfuzunu daha da artırır".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Belçikanın quruda külək enerjisi layihələrinin inkişafı üzrə ixtisaslaşmış "W-Kracht" şirkətinin icraçı direktoru Yeran Lovetti deyib. O bildirib ki, "Azərbaycanda iqtisadi inkişaf dayanıqlı formada davam edir və sərmayələr üçün münbit imkanlar yaradılıb. Məhz iqtisadi inkişaf və qazanılan uğurlar bu cür qlobal tədbirlərin keçirilməsini və nüfuzlu siyasi xadimlərin Azərbaycana səfərini mümkün edir. Müzakirə olunan məsələlər olduqca aktualdır.

"Forumda Avropadan gələn qonaqlar çoxluq təşkil edirlər ki, bu da Azərbaycanın dəyərlərə arxalanan siyasi xəttini göstərir. Bu dəyərlər demokratiya, sosial rifah və iqtisadi inkişafdan ibarətdir. Bu dəyərlər qeyd-şərtsiz dünya ictimaiyyəti tərəfindən qəbul edilir və dəstəklənir. Bu kimi siyasi xətt və bu siyasətdə dünya problemlərinin müzakirəsi üçün şəraitin yaradılması Azərbaycana beynəlxalq aləmdə yalnız hörmət gətirə bilər" deyən icraçı direktor diqqətə çatdırıb ki, onun rəhbərlik etdiyi şirkət Azərbaycana sərmayə yatıraraq enerji istehsalı ilə məşğul olmağı düşünür.




# Azərbaycanın sülh modeli beynəlxalq rəğbət qazanır

## İlham Əliyevin sülh strategiyası dünya üçün ən yaxşı nümunədir

**Qlobal təhlükəsizliyin sarsıldığı, beynəlxalq hüquq normalarının əksər hallarda kağız üzərində qaldığı bir şəraitdə Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıq bütün dünya üçün unikal örnəyə çevrilib. Söhbət ölkəmizin, sadəcə, öz ərazi bütövlüyünü bərpa etməsindən yox, eyni zamanda münaqişələrin həlli və postmünaqişə dövrünün idarə olunması istiqamətində təqdim etdiyi sülh modelindən gedir. Bu modelin ən səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, burada sülh deklarativ bəyanatlarla deyil, konkret əməli fəaliyyətlə, iqtisadi reinteqrasiya və vasitəçisiz dialoqla möhkəmləndirilir.**

Prezident İlham Əliyevin martın 12-də XIII Qlobal Bakı Forumunda çıxışı zamanı toxunduğu məqamlar Azərbaycanın son illərdə qazandığı siyasi və hərbi uğurların qiymətləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısı Azərbaycanın keçdiyi tarixi yolu nümunə kimi təqdim edərək vurğuladı ki, respublikamız beynəlxalq hüquqa əsaslanaraq suverenliyini və ərazi bütövlüyünü öz hərbi gücü və imkanları hesabına bərpa etdi: "Bizə gəldikdə, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası illər, təqribən 30 il çəkdi. Bunu BMT Nizamnaməsi, onun 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququ çərçivəsində həyata keçirdik. Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq. Beləliklə, biz dünya miqyasında nadir bir təcrübəyə malikik - milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi".

Azərbaycan Prezidenti bəyan etdi ki, əgər beynəlxalq hüquq və ədalət bir ölkənin tərəfindədirsə, bəzən güc tətbiqi qaçılmaz ola bilər: "Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi".

Azərbaycanın 44 günlük müharibədə qazandığı möhtəşəm Zəfər və sonrakı antiterror tədbirləri lokal xarakterli hərbi uğur olmaqla yanaşı, həm də beynəlxalq hüququn təmin olunmasını reallaşdırdı. Onilliklər ərzində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icra olunmaması beynəlxalq təşkilatlara və hüququn gücünə inamı sarsıtmışdı. Azərbaycan beynəlxalq birliyin edə bilmədiyini öz gücünə həyata keçirməklə dünyaya sübut etdi ki, dövlətlər öz legitim maraqları naminə bütün resurslarından istifadə etmək haqqına sahibdirlər. Halbuki uzun müddət beynəlxalq vasitəçilər "status-kvo"nun saxlanmasını yeganə çıxış yolu kimi təqdim edirdilər. Azərbaycan bu mifi dağıdaraq göstərdi ki, ədalətsiz sülh heç vaxt əbədi ola bilməz və "dondurulmuş" hesab edilən istənilən problem həllini tapanadək aktuallığını qoruyacaq.

Dövlətimizin başçısı ən önəmli məqamlardan birinin sülh təcrübəsi olduğunu xarici qonaqların diqqətinə çatdırdı. Sülhün heç də asan məsələ olmadığını vurğulayan Prezident İlham Əliyev Azərbaycan və Ermənistan arasında barışın bərqərar olmasını nadir vəziyyət kimi qiymətləndirdi: "2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət iki ildən az çəkdi. Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük".

Tarixən müharibələrdən sonra qalib tərəf kapitulyasiya şərtlərini diktə edir və qarşı tərəfi iqtisadi-siyasi asılılıqda saxlamağa çalışır. Azərbaycanın yanaşması isə klassik stereotipi tamamilə dəyişdi. Bakı qanlı müharibə bitdikdən dərhal sonra, hələ emosiyaların yüksək olduğu bir vaxtda sülh müqaviləsi təklif etməklə strateji uzaqgörənliyini ortaya qoydu. Bu yanaşma bir daha göstərdi ki, əsl güc müharibəni qazanmaqda yox, qələbəni əbədi və faydalı sülhə çevirə bilməkdədir. Məhz buna görə Vətən müharibəsi nəticəsində işğal olunmuş ərazilərimizin azad edilməsi və dərhal sonrakı dövrdə siyasi dialoq yolu ilə sülhə nail olunması müasir tarixdə nadir rast gəlinən hallardan biri kimi qiymətləndirilir. Bu proses Azərbaycanın hərbi və siyasi gücünü, dönməz iradəsini də nümayiş etdirir.

Azərbaycanın postmünaqişə dövründə sərgilədiyi yanaşma, həqiqətən də, beynəlxalq münasibətlər sistemində unikal presedent yaratdı. Çünki bu model hərbi qələbə ilə məhdudlaşmadı, möhtəşəm zəfərimizi dərhal sonra sülh gündəliyi, siyasi iradə və iqtisadi dirçəlişlə tamamladı. Azərbaycan sübut etdi ki, beynəlxalq hüququn kağız üzərində qalan qətnamələri icra olunmadığı təqdirdə dövlət öz gücü ilə ədaləti bərpa edə bilər. Bu, "dondurulmuş münaqişə" anlayışına da son qoydu. Dünya tarixində nadir hallarda rast gəlinir ki, müharibədə tam qələbə qazanmış tərəf dərhal, heç bir kənar təzyiq olmadan qarşı tərəfə sülh müqaviləsi təklif etsin. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın bu təcrübəsi göstərir ki, münaqişədən sonrakı dövr nifrət üzərində yox, inkişaf və əməkdaşlıq üzərində qurulmalıdır. Bu, hazırda dünyanın müxtəlif nöqtələrində davam edən və həlli mümkünsüz görünən münaqişələr üçün ən optimal və uğurlu "yol xəritəsi" ola bilər.

Ölkəmizin təqdim etdiyi modelin beynəlxalq arenada postmünaqişə standartı kimi qəbul edildiyi göz önündədir. Xarici diplomatlar və beyin mərkəzləri bu modeli digər regionlardakı münaqişələrin həlli üçün ümid işığı kimi dəyərləndirirlər. XIII Qlobal Bakı Forumunda iştirak edən keçmiş dövlət və hökumət başçıları, habelə nüfuzlu beyin mərkəzlərinin rəhbərlərinin çıxışları da bunu sübuta yetirdi. Forumda çıxış edən qonaqlar belə toplantıların Azərbaycanın sülh mesajlarını dünyaya yaymaq üçün çox mühüm platforma olduğunu söylədilər. BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının baş katibi Rebeka Qrinspan forumda çıxışı zamanı Azərbaycan Prezidentinin sülh uğrunda səylərini təqdir edib. BMT rəsmisi bildirib ki, Azərbaycan və Ermənistan arasında baş verən proseslər hər kəs üçün yaxşı nümunədir: "Bu, xüsusilə indiki mürəkkəb beynəlxalq şəraitdə qeyd olunmalı və qeyd edilməyə dəyən bir nailiyyətdir. Bu həm də dünya üçün bir ilham mənbəyidir. Çünki hazırda dünyaya daha çox sülh lazımdır". BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos da deyib ki, Cənubi Qafqazda son illərdə baş verən pozitiv inkişaflar göstərir ki, hətta gərgin münaqişələr də sülhə çevrilə bilər.

Azərbaycanın təqdim etdiyi sülh modeli, sadəcə, lokal uğur hekayəsi deyil, müasir dünya nizamında ədalətin və hüququn gücünün bərpasıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs sübut etdi ki, ən mürəkkəb münaqişələri belə milli iradə, hərbi qüdrət və uzaqgörən diplomatiyanın sintezi ilə həll etmək mümkündür. Bu gün Qarabağ və Şərqi Zəngəzurda ucalan yeni şəhərlər, çəkilən yollar və qurulan infrastrukturlar Azərbaycanın sülh təklifinin torpaq üzərində real təzahürüdür. Ölkəmiz qalib tərəf kimi sülh əlini uzatmaqla bölgə ölkələrini qaranlıq keçmişdən xilas olmağa, işıqlı gələcəkdən pay almağa dəvət edir. Bu, bütün Avrasiya məkanına sabitlik, rifah və əməkdaşlıq vəd edir.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

# Avropa İttifaqı etiraf edir

## Əsas diqqət Avropadan Mərkəzi Asiyaya uzanan bağlantılara yönəlib



**Dünyanın müharibələr və siyasi xaosla müşahidə olunan indiki dövründə heç vaxt olmadığı qədər dialoqa ehtiyac var. Xüsusən köhnə dünya düzəninin dağıldığı, yenisinin qurulması prosesindəki çətinliklər zamanında qlobal siyasi platformalarda bu ehtiyac özünü daha çox büruzə verir. XIII Qlobal Bakı Forumunda da "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda müzakirələrin aparılması məhz bu zərurətdən irəli gəlirdi.**

Forumda müzakirə olunan əsas məsələlərdən birinin müasir dövrdə qlobal ticarət marşrutlarının olması təsadüfi deyildi. Çünki hazırda baş verən məlum müharibələr və siyasi qarşıdurmalar səbəbindən dünyanın iki böyük ticarət marşrutunun iflic olması sıradan bir logistika hadisəsi deyil. Elə həmin marşrutları "kompensasiya" edən Orta dəhliz və onun yeni seqmenti Zəngəzur dəhlizi (TRIPP) layihəsi də bu hadisə fonunda az əhəmiyyət daşımır. Çünki dünyanın indi yeni, təhlükəsiz və iqtisadi cəhətdən sərfəli bir qlobal ticarət marşrutuna ehtiyacı yaranıb və Orta dəhlizin bu funksiyanı üzərinə götürmək imkanı çoxdur.

"Avropa İttifaqının əsas diqqəti Avropadan Mərkəzi Asiyaya uzanan bağlantılara yönəlib. Bir çox sahədə Çinlə rəqabət olsa da, Mərkəzi Asiyada bəzi məsələlərdə maraqlar üst-üstə düşür" - bunu Avropa İttifaqının Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Eduard Stiprays XIII Qlobal Bakı Forumu çərçivəsində keçirilən xüsusi sessiyada deyib. Aİ rəsmisi həmçinin bildirib ki, iki tərəfin maraq göstərdiyi əsas ortaq istiqamətlərdən biri regionda sabitlik və təhlükəsizlik, digəri isə regional bağlantı və nəqliyyat dəhlizlərinin inkişafıdır. E.Stiprays onu da vurğulayıb ki, Avropa İttifaqı və Çinin bu sahələr üzrə fəaliyyəti çox vaxt bir-birini tamamlayır: "Biz layihələri birgə koordinasiya etmirik, lakin müəyyən mənada fəaliyyətlərimiz təbii qaydada bir-birini tamamlayır".

Diplomat bildirib ki, indiki halda Avropa tərəfinin əsas diqqəti transmilli nəqliyyat marşrutlarının inkişafına, xüsusən də Avropadan Mərkəzi Asiyaya uzanan bağlantılara yönəlib. Ancaq Çin daha çox regionun şərq hissəsindəki əlaqələrin inkişafına fokuslanır. E.Stiprays buna misal olaraq Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsini göstərib: "Bu xətt Çindən başlayaraq Qırğızıstan və Özbəkistan üzərindən Türkiyəyə qədər uzanan mövcud dəmir yolu şəbəkəsinə qoşula bilər və beləliklə, Avrasiya boyunca nəqliyyat əlaqələrini genişləndirə bilər".

"Orta dəhliz Avropa və Asiya arasında yeni ticarət ekosistemi formalaşdırır. Orta dəhliz boyunca ticarətin inkişafından yalnız Mərkəzi Asiya deyil, həm də Avropa faydalanır". Bu sözləri isə Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) Cənubi Qafqaz üzrə regional direktoru Alkis Drakinos forum çərçivəsində keçirilən "Cənub-Şərqi Avropa və Trans-Xəzər regionunun biznesi" sammitində söyləyib. O, həmçinin qeyd edib ki, ticarətə, enerjiyə və infrastruktura artan tələbat dünya bazarlarındakı konyunktur dəyişikliklərindən asılı olmayaraq, Orta dəhlizin inkişafına davamlı tələb yaradır. Regional direktor deyib: "Mərkəzi Asiyada demoqrafik bum müşahidə olunur. Oradakı cəmiyyətlər çox gəncdir. İqtisadiyyatlar daha çox istehsal edir və ehtiyaclar da artır. Bununla yanaşı, ticarətdən yalnız Avropa faydalanmır. Avropa İttifaqı ölkələri təkcə enerji kimi resursları almır, həm də öz məhsullarını regionun sürətlə artan əhalisinə satırlar. Beləliklə, davamlı bir tendensiya formalaşır - ticarət həcmləri artır və uzunmüddətli perspektivdə bu marşrutun inkişafı özünü tam doğruldacaq". O vurğulayıb ki, seçimi olan bazar iştirakçıları üçün bir marşrutdan və ya bir logistik imkandan asılı olmamaq qat-qat yaxşıdır: "Nəqliyyat variantlarının bütöv bir ekosistemi mövcud olduqda, əsl dayanıqlılıq mənbəyi də məhz budur". Bu ərəfədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa İttifaqının (Aİ) Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi səfir Eduard Stiprays ilə Trans-Xəzər və TRIPP layihələrini müzakirə edib. Hikmət Hacıyev bununla bağlı "X" sosial media hesabında etdiyi paylaşımda bildirib: "Avropa İttifaqının Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi səfir Eduard Stiprays ilə regional əməkdaşlıq, xüsusilə əlaqəlilik, eləcə də Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu və TRIPP layihələri ilə bağlı səmərəli müzakirələr apardıq. Azərbaycanın Mərkəzi Asiya Məşvərət Şurasında tam üzvlüyü nəzərə alınmaqla bu format çərçivəsində əməkdaşlıq üçün mühüm imkanlar mövcuddur".

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Qarabağın bərpası şəhərlərin sıfırdan necə planlaşdırıla biləcəyini yenidən dərk etmək üçün unikal fürsətdir



**2026-cı il Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilib və bu, ölkənin müasir, dayanıqlı və rahat şəhər mühitinin formalaşdırılmasına xüsusi diqqət yetirdiyini vurğulayır. Son illərdə ölkə şəhərləri fəal şəkildə modernləşir: genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir, ictimai məkanlar yenilənir və "ağıllı şəhər", idarəetmə elementləri tətbiq olunur. Davamlı inkişaf, nəqliyyat mobilliyi, tarixi və mədəni irsin qorunması və insana istiqamətlənən şəhərlərin yaradılması məsələləri xüsusi əhəmiyyət kəsb edir.**

**Bundan əlavə, Qarabağın azad edilməsindən sonra Azərbaycan üçün qarşısında ən müasir memarlıq və şəhərsalma prinsiplərinə əsaslanan yeni şəhərlər və kəndlər qurmaq üçün unikal imkan yarandı. Özbəkistanlı memar Şahzot Rahmatov AZƏRTAC-a verdiyi müsahibədə davamlı şəhər inkişafına hansı yanaşmaların ən təsirli ola biləcəyi, hansı beynəlxalq təcrübələrin nəzərə alınmalı olduğu və müasir həllərin şəhər həyatının keyfiyyətini necə dəyişdirə biləcəyi barədə bəhs edib.**

*- Son illərdə Azərbaycan şəhərləri fəal şəkildə müasirləşir və genişlənir. Sizin fikrinizcə, ölkənin müasir şəhərlərinin inkişafının əsasını dayanıqlı şəhərsalmanın hansı əsas prinsipləri təşkil etməlidir?*

- Fikrimcə, dayanıqlı şəhər inkişafı insanların rahatlığına hesablanmış yanaşmadan başlamalıdır. Şəhərlər təkcə avtomobillər və ya infrastruktur üçün deyil, ilk növbədə insanlar üçün layihələşdirilməlidir. Əslində, bu sualı şəhərsalma mütəxəssislərinə və memarlara versəniz, onların çoxu çox oxşar prinsipləri səsləndirəcəklər. Rahat ictimai məkanlar, gəzinti üçün rahat küçələr və əlçatan xidmətlər sağlam şəhər mühitinin ən vacib elementləridir.

Daha bir vacib prinsip ərazilərin qarışıq istifadə edilməsidir. Mənzil, iş yerləri, mağazalar və ictimai məkanlar bir-birinə yaxın yerləşdikdə, şəhərlər daha dinamik, insanlar isə uzunmüddətli gündəlik səyahətlərdən daha az asılı olurlar. Belə yanaşma avtomobildən asılılığı azaldır və daha aktiv sosial həyatı təşviq edir.

Nəhayət, təbiətin şəhər mühitinə inteqrasiyası çox vacibdir. Yaşıl zonalar, parklar və ekoloji dəhlizlər şəhərin ətraf mühitini yaxşılaşdırır, eləcə də gündəlik həyat üçün daha xoş yerlər yaradır.

*- Bakı və digər böyük şəhərlər sürətli əhali artımı və nəqliyyat sıxlığı ilə üzləşir. Şəhərsalma sahəsində hansı həllər şəhər mühitini daha rahat və funksional edə bilər?*

- Nəqliyyat sıxlığı sürətlə böyüyən bir çox şəhər üçün ümumi problemdir. Ən təsirli həllərdən biri ictimai nəqliyyat sistemlərinin gücləndirilməsidir. Səmərəli metro xətləri, avtobus şəbəkələri və yaxşı təşkil olunmuş hərəkətlilik sistemləri şəxsi avtomobillərdən asılılığı əhəmiyyətli dərəcədə azalda bilər.

Eyni zamanda şəhərlər piyadalar üçün daha rahat olmalıdır. Gəzinti üçün əlverişli küçələr, təhlükəsiz piyada keçidləri və velosiped infrastrukturu gündəlik hərəkətetməni daha rahat və davamlı edə bilər.

Daha bir vacib yanaşma hər şeyi bir mərkəzi rayonda cəmləşdirmək əvəzinə, bir neçə şəhər mərkəzinin inkişaf etdirilməsidir. Xidmətlər, iş yerləri və ictimai məkanlar şəhərin müxtəlif hissələrində bölüşdürüldükdə, insanlar hər gün uzun məsafələri qət etmək məcburiyyətində qalmırlar.

Regionumuzda aktual bir nümunə, hazırda Daşkənd yaxınlığında planlaşdırılan yeni bir şəhər - Yeni Daşkəndin inkişafıdır. Layihə inteqrasiya olunmuş ictimai nəqliyyat, "yaşıl dəhliz"lər və çoxfunksiyalı rayonlarla polisentrik şəhər strukturunun yaradılmasını hədəfləyir. Belə yanaşmalar mövcud şərtlərdə nəqliyyat sıxlığının azaldılmasına kömək edərkən, eyni zamanda daha balanslı şəhər mühiti yaradır.

*- Qarabağın işğaldan azad edilməsindən sonra genişmiqyaslı şəhər və kənd bərpa proqramına start verildi. Planlaşdırma və memarlığa hansı müasir yanaşmalar bu əraziləri davamlı və innovativ inkişafın modellərinə çevirə bilər?*

- Qarabağın bərpası şəhərlərin və yaşayış məntəqələrinin sıfırdan necə planlaşdırıla biləcəyini yenidən dərk etmək üçün unikal fürsətdir. Mədəni irs bölgənin bərpasında mühüm rol oynayır. Bölgənin azad edilməsindən sonra bərpa edilən ilk tarixi və dini binalardan biri olan Şuşadakı Yuxarı Gövhər ağa məscidinin bərpası rəmzi nümunələrdən biridir. Bu cür abidələrin dirçəldilməsi icmaların mədəni kimliyi və tarixi yaddaşı ilə yenidən əlaqə qurmasına kömək edir.

Daha bir əsas aspekt təbii mənzərə ilə ehtiyatlı inteqrasiyadır. Qarabağın çox zəngin təbii mühiti var və gələcək inkişaf ona qarşı deyil, bu mənzərə ilə harmoniyada işləməlidir, balanslı və davamlı icmalar yaratmalıdır.

*- Hansı beynəlxalq şəhərsalma təcrübələri Azərbaycan üçün xüsusilə faydalı ola bilər?*

- Dünyada dəyərli dərslər verən bir çox maraqlı nümunə var. Məsələn, Kopenhagen piyadalara və velosipedçilərə üstünlük verməsi ilə geniş tanınır ki, bu da şəhər hərəkətliliyini və həyat keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb.

Son illərdə Paris də mer Ann İdalqonun rəhbərliyi ilə mühüm şəhər hərəkətliliyi islahatlarını həyata keçirib. Bir neçə avtomobil zolağı piyada zonalarına və velosiped infrastrukturuna çevrilib, bir çox küçə isə birtərəfli küçələrə çevrilib. Bu tədbirlər avtomobil hərəkətini azaltmağa və daha rahat ictimai məkanlar yaratmağa kömək edib.

Daha bir maraqlı nümunə Superbloks konsepsiyasının tətbiq olunduğu Barselonadır. Müəyyən şəhər məhəllələri daxilində avtomobil hərəkətini məhdudlaşdırmaqla, piyadalara və ictimai fəaliyyətə üstünlük verməklə həyat üçün daha sakit və daha rahat məkan yarada biliblər.

Bu cür beynəlxalq təcrübələrin öyrənilməsi və uyğunlaşdırılması şəhərlərə yerli konteksti və mədəni kimliyi qoruyub saxlayarkən şəhər həyatını yaxşılaşdıran həllər hazırlamağa kömək edə bilər.

TANAP-ın təməlinin qoyulmasının 11 ili tamam olur

# Enerjinin İpək yolu




**TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) Xəzərin sahilindəki Səngəçal terminalından başlayaraq Adriatik dənizinin sahilinə, İtaliya torpağınadək uzanan və indi artıq həm də interkonnektorlarla şaxələnən "Cənub qaz dəhlizi"nin ən böyük hissəsidir. TANAP-ı haqlı olaraq bu dəhlizin bel sütunu adlandırırlar.**

Bu kəmər "Cənub qaz dəhlizi"nin həm də birləşdirici halqasıdır. Belə ki, bu xətt Gürcüstan-Türkiyə sərhədində genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri) ilə birləşir, Türkiyə-Yunanıstan sərhədində isə TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) qovuşur. "Cənub qaz dəhlizi"ni yaradan üç kəmərin ikincisi olması TANAP-ın dəyərini daha aydın əks etdirir.

Bu boru xəttinin təkcə region üçün deyil, bütün Avropa məkanı üçün əhəmiyyəti böyükdür. Həmin səbəbdən də 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda TANAP-ın təməlinin qoyulması tarixi bir hadisə idi. Bu, uzunmüddətli danışıqlardan konkret işlərə keçməyə imkan yaradırdı. Çünki kəmərin salnaməsi hələ bundan xeyli əvvəl başlanmışdı. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin o vaxt Baş naziri, indi Prezidenti olan Rəcəb Tayyib Ərdoğan TANAP üzrə hökumətlərarası sazişi İstanbulda hələ 2012-ci ilin iyun ayında imzalamışdılar. Prezident İlham Əliyevin dediyi kimi, TANAP-a aparan yol 2012-ci ildə başlamışdır.

Layihənin həyata keçirilməsi istiqamətində genişmiqyaslı işlərə də elə həmin vaxtdan start verilmişdi. 2014-cü ilin ortalarınadək layihələndirmə işləri, araşdırmalar tamamlanmışdı. Sonra mühəndis-layihələndirmə, təchizat-tədarük, tikinti-idarəçilik müqavilələri imzalanmış və kəmərin tikintisinin bütün incəlikləri nəzərdən keçirilmişdi. Beləliklə, 2014-2015-ci illər TANAP-ın ərsəyə gəlməsində çox məsuliyyətli bir dövr olmuşdu.

Enerjinin İpək yolu sayılan TANAP 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Qardaş ölkəyə ilk qaz həcmlərinin nəqli isə planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlanıb. TANAP Türkiyənin ərazisində 1850 kilometrlik məsafə qət edir, ölkənin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçərək Avropanın qapısına çatır. Kəmərin Gürcüstan-Türkiyə sərhədində başlayıb Əskişəhərdə bitən hissəsinin uzunluğu 1350 kilometr, oradan Türkiyə-Yunanıstan sərhədinədək olan hissəsi isə 480 kilometr təşkil edir. 2019-cu il iyulun 1-dən etibarən TANAP Azərbaycan qazını TAP-a ötürmək üçün hazır vəziyyətə gətirilib.

Hazırda Azərbaycan 16 ölkəyə qaz ixrac edir. Xatırladaq ki, bunlar Gürcüstan, Türkiyə, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriyadır. Azərbaycan qazını Gürcüstan-Türkiyə sərhədində CQBK-dan alan TANAP-ın bütün bu ölkələrin enerji təchizatında rolu danılmazdır.

Bu il martın 3-də "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının Bakıda keçirilən toplantısında Prezident İlham Əliyev demişdir:"Biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik. Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur. Lakin bunun üçün şübhəsiz ki, ötən dəfə də qeyd etdiyimiz kimi, mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu gün "Cənub qaz dəhlizi" artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq, artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır".

Bu baxımdan TANAP-ın da üzərinə mühüm işlər düşür.

Keçən il martın 5-də Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dedikləri də diqqət çəkir: "Ölkələrimiz arasındakı münasibətlər müdafiədən ticarətə qədər çox geniş sahədə daim inkişaf edir. Şübhəsiz ki, bu əməkdaşlıqlarımız arasında bir çox layihə ilə taclandırdığımız enerji sektoru başda yer alır. Bəzilərinin xəyal hesab etdiyi Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri kimi, "Şahdəniz" yatağının və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərinin istismara verilməsi ilə enerji əməkdaşlığımızı daha irəliyə aparmağa nail olduq. Anadoludan keçən təbii qaz boru kəməri - TANAP vasitəsilə böyük miqdarda Azərbaycan qazının Avropaya çatdırılmasının sevincini yaşayırıq. Bu sahədə strateji və qeyri-adi layihələri həyata keçirməkdə Can Azərbaycan ilə tam uzlaşma içərisindəyik".

Xatırladaq ki, ötən il Azərbaycan 25,2 milyard kubmetr qaz ixrac edib. Bu həcmin 12,8 milyard kubmetri Avropaya, 9,6 milyard kubmetri Türkiyəyə, 2,3 milyard kubmetri Gürcüstana və 0,5 milyard kubmetri Suriyaya göndərilib. Türkiyənin ilboyu aldığı Azərbaycan qazının 5,6 milyard kubmetrini TANAP nəql edib. Avropaya ixrac olunan qazın da yolu Türkiyədən, yəni TANAP-dan keçir. TANAP-dan qəbul etdiyi qazı TAP Avropaya 2020-ci ilin son günündən ötürür.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Yaxın Şərq böhranı Ermənistan iqtisadiyyatını çıxılmaz vəziyyətə salıb

## İrəvanda Azərbaycanla sülhün vacib olduğunu daha dərindən dərk etməyə başlayıblar

**"Nikol Paşinyanın Avropa Parlamentində çıxışında sülh prosesinə toxunması, Ermənistanın sülh gündəliyini önə çıxarması ümumilikdə müsbət siqnal kimi qiymətləndirilməlidir. Bu, Ermənistan rəhbərliyinin regionda davamlı inkişaf və təhlükəsizlik üçün alternativ yolun məhz Azərbaycanla sülh sazişinin imzalanmasından keçdiyini getdikcə daha çox anladığını nümayiş etdirir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Fuad Abdullayev deyib. O qeyd edib ki, regional və qlobal geosiyasi şərait, xüsusilə İran ətrafında yaranmış gərginlik fonunda Yaxın Şərqdə və regionda təhlükəsizlik mühitinin qeyri-müəyyənliyi artıb. Belə bir vəziyyətdə Cənubi Qafqaz ölkələri, xüsusilə də dünyaya çıxışı məhdud olan Ermənistan üçün sabitliyin və regional əməkdaşlığın əhəmiyyəti daha da artır. "Çünki Ermənistanın iqtisadiyyatı, xüsusən ticarət və logistika marşrutları bu geosiyasi gərginlikdən birbaşa təsirlənir. Son dövrlər Ermənistan hakimiyyəti iqtisadiyyat sahəsini diversifikasiya etmək və Rusiyadan asılılığı azaltmaq üçün müəyyən addımlar atır. Bu siyasətin əsas istiqamətlərindən biri də İran üzərindən alternativ bazarlara - daha çox Yaxın Şərq ölkələrinə çıxış imkanlarının genişləndirilməsidir. Lakin regionda yaranmış hərbi gərginlik bu planların reallaşmasını müəyyən qədər çətinləşdirir və mövcud hakimiyyətin iqtisadi strategiyasına ciddi təsir göstərir", - deyə ekspert bildirib.

Siyasi təhlilçi vurğulayıb ki, İrandakı müharibə uzanarsa, Ermənistan iqtisadiyyatı daha çox problemlə üzləşə bilər. Paralel olaraq son dövrlərdə Gürcüstan üzərindən yük daşınmalarında problemlər də yaranıb. Bütün bu amillər fonunda Ermənistan daha aydın anlayır ki, regionun əsas tranzit imkanlarından biri Azərbaycan üzərindən keçən kommunikasiyaların açılmasıdır. Bu baxımdan Azərbaycanın tranzit yollarını açması Ermənistan üçün təkcə siyasi deyil, həm də ciddi iqtisadi əhəmiyyət kəsb edir. Ermənistan bu əhəmiyyəti getdikcə daha yaxşı anlayır.

F.Abdullayev qeyd edib ki, Azərbaycanın son illərdə həyata keçirdiyi uzaqgörən siyasəti regionda sabitliyin qorunmasında əsas faktorlardan biridir: "Bakı həm regional təşəbbüsləri təşviq edir, həm də nəqliyyat və enerji layihələri vasitəsilə regionun inkişafına töhfə verir. Məhz buna görə də təkcə Ermənistan deyil, başda Avropa İttifaqı olmaqla, digər ölkələr də Azərbaycanı getdikcə daha çox etibarlı strateji tərəfdaş kimi dəyərləndirirlər. Azərbaycana səfəri zamanı Aİ Şurasının prezidenti Antonio Koştanın ölkəmizin mühüm və etibarlı tərəfdaş olduğunu vurğulaması da təsadüfi deyil. Bu, Azərbaycanın həm enerji təhlükəsizliyində, həm də regional sabitliyin təmin edilməsində oynadığı rolun beynəlxalq səviyyədə tanındığını göstərir".

Siyasi şərhçi bildirib ki, Nikol Paşinyanın səsləndirdiyi açıqlamaların real nəticə verməsi üçün sülh sazişinin imzalanmasına maneə olan amillər aradan qaldırılmalıdır. Bura əsasən Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının mövcudluğu daxildir, yəni bəyanatlarla yanaşı, praktiki addımların atılması da vacibdir. Ermənistan rəhbərliyi və cəmiyyəti regionda yeni mərhələnin başlanmasını, həqiqətən də, istəyirsə, o zaman sülh prosesinə maneə olan bütün faktorların aradan qaldırılması istiqamətində mühüm addımlar atmalı, qarşıdan gələn parlament seçkilərində öz mövqeyini bildirməlidir. Yalnız bu halda Cənubi Qafqazda sabitlik və əməkdaşlıq üçün real imkanlar formalaşa bilər. Ermənistan və cəmiyyəti isə bundan ancaq fayda əldə edər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# AƏSMA-da innovativ ideyaların reallaşdırılması üçün yeni imkanlar yaradılır





**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) Əmək və Sosial Münasibətlər Akademiyasının (AƏSMA) Təlim mərkəzində İnnovativ laboratoriya fəaliyyətə başlayıb.**



Tədbirdə AHİK, üzv və tabe təşkilatların rəhbərləri, dövlət qurumlarının nümayəndələri, akademiyanın professor-müəllim və tələbələri, eləcə də rəqəmsal texnologiyalar üzrə mütəxəssislər iştirak ediblər.

Konfederasiya sədrinin müavini Musa Mirzəyev həmkarlar ittifaqları üzvlərinin bilik və bacarıqlarının artırılması, onların maarifləndirilməsi istiqamətində həyata keçirilən layihələrdən danışıb. Vurğulanıb ki, Təlim mərkəzində yaradılan İnnovativ laboratoriya yüksəkpotensiallı tələbələr və professor-müəllim heyəti üçün yeni imkanlar açacaq.

Elm və Təhsil Nazirliyinin şöbə müdiri Turxan Süleymanov çıxışında laboratoriyanın gənclərin innovativ ideyalarının və yaradıcı təşəbbüslərinin reallaşdırılmasına, həmçinin startap layihələrinin inkişafına əlavə imkanlar yaradacağını qeyd edib.

Akademiyanın rektor vəzifəsini icra edən Fərid Babayev ali təhsil müəssisəsində tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlərdən, əmək bazarının tələblərinə uyğun kadr hazırlığından söz açıb.

Tədbir çərçivəsində akademiyanın Təlim mərkəzinin fəaliyyəti və həyata keçirilən layihələr, ali təhsil müəssisəsinin beynəlxalq əlaqələri barədə məlumat verilib. Vurğulanıb ki, akademiya Böyük Britaniyanın Əməyin Təhlükəsizliyi və Sağlamlığı İnstitutunda (IOSH) akkreditasiyadan keçib.

Tədbirdə tələbələrin startap layihələri təqdim edilib, həmçinin təlim proqramlarında yüksək nəticə əldə edən iştirakçılara sertifikatlar verilib.

Qeyd edək ki, AƏSMA-nın Təlim mərkəzində informasiya texnologiyaları sahəsində peşəkar bilik və bacarıqların inkişaf etdirilməsi məqsədilə "Cisco" təlimlərinin təşkili də nəzərdə tutulur.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

Ötən həftənin iqtisadi icmalı

# Regional və beynəlxalq əməkdaşlığımız genişləndi, neft bahalaşdı, qızıl ucuzlaşdı

**Ötən həftə iqtisadi həyat sürprizlərlə dolu oldu. Qiymətlər yüksəldi, bazarlarda gərginlik hiss olundu, amma bəzi sahələrdə ümidverici artımlar da qeydə alındı. Təbii ki, baş verən hər olay ölkə iqtisadiyyatının gələcəyinə təsir göstərir. Bu icmalda sizə həftənin əsas iqtisadi "səhnəarxası"nı çatdırmağa çalışacağıq.**



Həftənin ilk günlərindən iqtisadi gündəmdə baş verən hadisələr diqqət çəkməyə başladı. Martın 11-də Azərbaycan ərazisi vasitəsilə Ermənistana Rusiya taxılının növbəti tədarükü gerçəkləşdi. 11 vaqondan ibarət, ümumi çəkisi 1023 ton olan taxıl yükü Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə yola salındı. Yükün daşınması əvvəlcədən müəyyən edilmiş marşrut üzrə, tranzit qaydalarına uyğun şəkildə həyata keçirildi. Qeyd etmək lazımdır ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycan ərazisi vasitəsilə 22 min tondan çox taxıl göndərilib ki, bu da təxminən 320 vaqona bərabərdir. Eyni marşrut üzrə həmçinin 610 ton gübrə də (9 vaqon) daşınıb. Regionda tranzit ticarət hələ də fəal şəkildə davam edir.

❖ ❖ ❖

Həftəboyu regional və beynəlxalq iqtisadi əməkdaşlıq sahəsində də irəliləyişlər davam edib. Özbəkistana səfər edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və Özbəkistan Ali Audit Orqanının sədri vəzifəsini icra edən Mehriddin Abdullayev arasında rəsmi görüş keçirilib. Görüşdə hər iki qurum nümayəndələrinin təqdimatları və fikir mübadiləsi aparılıb. Azərbaycan tərəfi palatanın fəaliyyəti, beynəlxalq layihələri və maliyyə nəzarəti sahəsindəki təcrübəsini təqdim edib, Özbəkistan isə rəqəmsal transformasiya, məsafədən idarəetmə və ISSAI standartlarının tətbiqi sahəsindəki uğurlarını paylaşıb. Səfər çərçivəsində nümayəndə heyəti Özbəkistan Hesablama Palatasının Məsafədən İdarəetmə Mərkəzi ilə də tanış olub. Bütün bunlar ona dəlalət edir ki, Azərbaycan və Özbəkistan Hesablama Palataları arasında əməkdaşlıq bir qədər də möhkəmləndirilib.

❖ ❖ ❖

Həftə beynəlxalq iqtisadi gündəmlə də diqqət çəkib. Vaşinqtonda "ABŞ-Azərbaycan Ticarət Palatası"nın 30 illiyi münasibətilə önəmli bir konfrans keçirilib. "Amerika Birləşmiş Ştatları-Azərbaycan Ticarət və Biznes Gündəliyi: Bazarların Birləşdirilməsi - Gələcəyin Qurulması" adlı beynəlxalq konfransda işgüzar dairələr, dövlət nümayəndələri və ekspertlər bir araya gələrək iki ölkə arasında ticarət və investisiya əlaqələrini inkişaf etdirməyin yollarını müzakirə ediblər. Əsas məqsəd bazarların birləşdirilməsi və gələcək əməkdaşlığın strategiyasını müəyyənləşdirmək olub. Tərəflər iqtisadiyyatın rəqəmsal transformasiyası, innovativ texnologiyaların tətbiqi və süni intellektin (Sİ) inkişafı istiqamətində əməkdaşlığın perspektivlərini dəyərləndiriblər.

❖ ❖ ❖

Ölkədə texnologiya və dayanıqlı enerji sahəsində irəliləyişlər davam edir. Bu kontekstdə "Aztelekom" öz şəbəkələrini günəş enerjisi ilə gücləndirir. Ötən həftə şirkət Kürdəmir rayonunun Qarasaqqal və Mollakənd yaşayış məntəqələrində GPON OLT stansiyalarına 5 kVt-lıq günəş enerji sistemləri quraşdırıb. Qarasaqqal stansiyası iki AGM batareya, Mollakənd isə dörd litium batareya ilə təmin edilib. Layihə enerji sabitliyini gücləndirir, kəsintiləri azaldır və GPON şəbəkəsinin fasiləsiz fəaliyyətini təmin edir. "Aztelekom" bu təcrübəni ilboyu digər ərazilərdə də genişləndirməyi planlaşdırır.

❖ ❖ ❖

Həftə iqtisadi və beynəlxalq əməkdaşlıq xəbərləri ilə yanaşı, ölkədə qadın sahibkarlığının və liderliyinin təşviqi ilə diqqət mərkəzində olub. ABB-nin dəstəyi, "Facemark" şirkətinin təşkilatçılığı ilə Gülüstan sarayında II Qadın Liderləri Zirvəsi keçirilib. Tədbirdə "Zirvəyə gedən yol", "Zirvədəki baryerlər və maneələr", "Zirvədə davamlılıq və dayanıqlılıq" mövzularında 3 əsas panel üzrə müzakirələr aparılıb. II Qadın Liderləri Zirvəsi ölkəmizdə qadın liderliyinin gücləndirilməsi və gələcək nəsil liderlərin formalaşdırılmasına töhfə verən əhəmiyyətli platforma kimi yadda qalıb.

❖ ❖ ❖

Ölkəmizin iqtisadi əlaqələri yalnız regionla məhdudlaşmır, beynəlxalq tərəfdaşlıqlar da genişlənərək inkişaf edir. Martın 12-də Pekində Ələt Azad İqtisadi Zonasının (ƏAİZ) Səlahiyyətli Qurumu tərəfindən Azərbaycanın Çindəki səfirliyinin dəstəyi və Çin Xarici İnkişaf Assosiasiyasının (CODA) əməkdaşlığı ilə ƏAİZ-ə həsr olunmuş tədbir keçirilib. Tədbir çərçivəsində CODA-nın üzv müəssisələrinin rəhbərləri və nümayəndələri, o cümlədən xaricdə investisiya və sənaye əməkdaşlığı sahəsində fəal şəkildə fəaliyyət göstərən aparıcı Çin şirkətləri daxil olmaqla 200-dən çox iştirakçı bir araya gələrək ƏAİZ-də mövcud investisiya imkanlarını müzakirə ediblər. ƏAİZ-də rəsmi olaraq qeydiyyatdan keçmiş ilk Çin şirkəti "Sunsync" öz qabaqcıl texnologiyaları və innovasiya imkanlarını Azərbaycana gətirərək, Azad Zonada 23 hektarlıq günəş paneli istehsalı müəssisəsini qurmağı planlaşdırdığını diqqətə çatdırıb.

❖ ❖ ❖

Həftənin ən yaddaqalan beynəlxalq hadisələrindən biri martın 12-də Bakıda Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumunun öz işinə başlaması olub. Forum dünyanın siyasi çevrələrinin və beynəlxalq institutların diqqətini yenidən Azərbaycana yönəltdi. Üç gün davam edən XIII Qlobal Bakı Forumunda "Qlobal təhlükəsizlik və güc tarazlığı: Beynəlxalq hüquqa hörmət. Yeni məsələlər, yeni çağırışlar", "Çoxtərəflilik böhran içində: Qlobal əməkdaşlığı yenidən düşünmək", "BMT 80+", "Çin və Qlobal İdarəetmə Təşəbbüsü", "Danışıqlardan kənarda: COP-u yaşatmaq uğrunda mübarizə", "Orta dəhliz və Avrasiya Bağlantısı Qapısı", "Afrika bu gün və sabah", "2030 gündəliyinin sürətləndirilməsi: İnklüziv inkişaf və davamlı əlaqəlilik", "Rəqəmsal gələcək: süni intellekt, idarəetmə və innovasiyanın etikası", "Mənzil üçün qlobal əməkdaşlıq: WUF13 üçün perspektivlər", "Beynəlxalq sisteminin yenidən qurulmasının axtarışında" mövzuları ayrı-ayrı panellərdə müzakirə olunub.

❖ ❖ ❖

Ötən həftə dünya bazarında Azərbaycan nefti bahalaşıb. "Azeri Light" markalı neftin bir barelinin qiyməti 3,52 dollar və ya 3,3 faiz artaraq 109,1 dollar olub. Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də 15,81 dollar, maksimal qiyməti isə 2008-ci ilin iyulunda 149,66 dollar olub.

Nyu Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 41,3 dollar azalaraq 5 020,4 dollar təşkil edib. Gümüş isə 0,97 dollar azalaraq 80,37 dollara bərabər olub. Bu göstəricilər dünya bazarında qiymətlərin həftə ərzində dalğalanmasının davam etdiyini göstərir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Səyyar qəbul-görüş bu dəfə də sakinlərdə razılıq doğurdu

**Əhalinin problemlərinin yerində öyrənilməsi və həll edilməsi üçün Ağdam rayon rəhbərliyinin səyyar görüş qəbulları davam edir. Növbəti belə görüş Quzanlı köçkün qəsəbəsində keçirilib.**

Səyyar görüşdə əhalini rahatsız edən problemlərin həlli üçün həyata keçirilən tədbirlərdən, infrastrukturun yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışılıb. RİH-in başçısı Vaqif Həsənov Prezident İlham Əliyevin verdiyi tapşırıqların icra olunması, əhalinin problemlərinin öyrənilməsi və operativ həlli üçün keçirilən bu cür görüşlərin vacib olduğunu qeyd edib, əhalinin sosial müdafiəsinə və rifah halının yüksəlməsinə yönəlmiş son qərarlardan danışıb. O, həmçinin "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasını təmin etmək haqqında Azərbaycan Respublikasının Prezidentinin 3587 nömrəli sərəncamının 3.1.2-ci bəndinin icrası ilə əlaqədar məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə qayıdışı üçün təbliğat-izahat və təşviqat işlərinin aparılması ilə bağlı məlumat verib.

RİH başçısı qəbula gələn vətəndaşların qaldırdıqları məsələlərin bir hissəsini yerində həll edib, digər vacib məsələlərin həlli üçün isə tapşırıqlar verib və onların həllini nəzarətə götürüb. Sakinlər onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

*L.QULİYEV,*
*"Azərbaycan"*

## SDU şəhid məzunu ilə qürur duyur



**Sumqayıt Dövlət Universitetinin kollektivi və bir qrup tələbəsi universitetin Mühəndislik fakültəsinin məzunu, şəhid Elnur Səmədovun ailəsini ziyarət edib, məzarı önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.**

Çıxış edən SDU-nun prorektoru, dosent Elmar Xəlilov Elnur Səmədovun vətən torpaqlarının müdafiəsi uğrunda göstərdiyi igidlikdən qürur duyduqlarını bildirib. Qeyd edib ki, o, şərəfli həyat yolu, vətənpərvərliyi və qəhrəmanlığı ilə gənc nəsillər üçün örnəkdir. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər. Onlar vətən uğrunda şəhidlik zirvəsinə ucalan Elnur Səmədovla qürur duyduqlarını bildiriblər.

Qeyd edək ki, 2-ci əfsanəvi taborun qrup komandiri, baş kəşfiyyatçı leytenant Elnur Səmədov 2014-cü ilin avqust və 2016-cı ilin Aprel döyüşlərində, eləcə də İkinci Qarabağ müharibəsində xüsusi şücaət göstərib.

O, 2022-ci il sentyabrın 13-də Kəlbəcər istiqamətində düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına həlak olub. Şəhid Elnur Səmədov Prezident İlham Əliyevin sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Ağstafalılar "Keşikçidağ"da Novruz şənliyinə toplaşdılar

**Ağstafada "Keşikçidağ" dövlət tarix-mədəniyyət qoruğunun ərazisində "Novruz ənənələri" adlı tədbir keçirilmişdir. Tədbir qoruğa məxsus İnformasiya Mərkəzində qədim musiqi alətləri olan qara zurna və nağara sədaları altında Kosa, Keçəlin və milli geyimli gənclərin xüsusi bəzədilmiş Dilbaz atlarda məclisə gəlişi ilə başlamışdır.**

Ulu Öndər Heydər Əliyevin və Vətənin uğrunda canından keçən şəhidlərimizin əziz xatirələri birdəqiqəlik sükutla yad edildikdən sonra rayon icra hakimiyyətinin başçısı Seymur Orucov iştirakçıları xalqımızın əziz bayramı olan Novruzun gəlişi ilə əlaqədar təbrik etmişdir. Diqqətə çatdırmışdır ki, bu bayram yazın gəlişini, təbiətin oyanışını və həyatın yenilənməsini simvolizə edir. Qoruğun direktoru Musa Mursaquliyev tədbirin keçirilməsinin əhəmiyyətindən söz açaraq əlavə etmişdir ki, "Keşikçidağ"a məxsus informasiya mərkəzində təşkil olunan bu tədbirin əsas məqsədi Azərbaycanın qədim adət-ənənələrinin qorunması və təbliği, milli bayramlarımızdan biri olan Novruzun dəyərlərinin gənc nəslə çatdırılması, həmçinin "Keşikçidağ" mağaralar kompleksində yerləşən tarixi və mədəni irs nümunələrinin tanıdılmasıdır.

Sonra tədbir çərçivəsində "Kitabi-Dədə Qorqud" dastanının prototipi hesab edilən Dədə Qorqudun dilindən ibrətamiz sözlər səsləndirilmiş, qonaqlar Novruz atributları, bayram dekorasiyaları, xalçalar və saxsı nümunələri ilə bəzədilmiş alaçıqlarla tanış olmuşlar. Tədbir çərçivəsində xalq oyunları, gənc qızların bayatı və haxışta söyləməsi, eləcə də milli musiqi alətləri və milli rəqslərin ifası nümayiş etdirilmişdir. Qonaqlara milli mətbəximizin ləziz təamlarından olan paxlava, şəkərbura, qoğal, göy kətəsi təqdim edilmişdir. Şənliyin sonunda qoruğa məxsus İnformasiya Mərkəzinin ətrafında salınmış "Zəfər bağı"nda şəhid ailələri və qazilərin iştirakı ilə badam tingləri əkilmişdir.



*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Suya həyat deyiriksə, onun qədrini bilməliyik

### Kürün Xəzərə qovuşduğu Neftçalada bu əvəzsiz nemətə məhz belə münasibət var



**Su yaranışın dörd ünsüründən biridir. O, həyatdır, bolluqdur, təmizlikdir, aydınlıqdır. Su ulu Tanrının bəşəriyyətə bəxş etdiyi əvəzsiz bir nemətdir. Təəssüflər olsun ki, qlobal istiləşmə, ekoloji tarazlığın pozulması, iqlim anomaliyaları dünyanı çənginə almışdır. Planetin bir tərəfini daşqınlar, digər tərəfini quraqlıq hədələməkdədir. Bir ərazi sel sularının altında məhv olur, digər ərazilər bir damla yağışa həsrət qalır.**

Azərbaycan da su sarıdan bəxtəvər ölkə deyil. 2010-cu illərin ortalarından, xüsusilə 2017-2020-ci illər aralığındakı iqlim dəyişikliyi, o cümlədən yağıntıların azalması Kür çayının səviyyəsinin kəskin aşağı enməsi ilə nəticələndi. 2020-ci ildə Kür suyunun hətta Xəzərə çata bilməməsi, əksinə, Xəzərdən duzlu suyun Kürə daxil olması Neftçala rayonunda su böhranı yaratdı. Əhali həm içməli, həm də suvarma suyuna həsrət qaldı. O zaman Prezident İlham Əliyevin müvafiq sərəncam və göstərişləri ilə məsələ həllini tapdı. "Su ehtiyatlarından səmərəli istifadə edilməsinə dair 2020 - 2022-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq, qısa müddət ərzində böhranlı vəziyyət aradan qaldırıldı, Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə mükəmməl su xətti çəkildi, habelə Neftçala şəhərində kanalizasiya sistemi yenidən quruldu, suvarma suyu ilə əlaqədar kanallarda yenidənqurma işləri aparıldı, su itkisinin qarşısını almaq üçün tədbirlər həyata keçirildi.

Lakin Kür çayında bu gün də suyun səviyyəsi aşağıdır, əvvəlki Kürdən əsər-əlamət yoxdur. Bir vaxtlar coşub-daşıb kürlük edən çay demək olar gözlərimiz qarşısında quruyur. Çox yox, 15-20 il əvvəl bəndə-bərəyə sığmayan, ipə-sapa yatmayan, özünə "dəli" ləqəbi qazanan çay indi ensiz bir kanal halına düşərək illərin yorğunu kimi zorla sürünə-sürünə axır. Xəzər dənizi də sanki insanların əməlindən incimiş kimi geri çəkilir, yerində qumsal sahillər qoyur.

Amma nə pis ki, bu cür problem dünyanın hər yerində meydan sulayır. Dövlətlər gələn fəlakəti sovuşdurmaq, daha az ziyan çəkmək üçün qabaqlayıcı tədbirlər görürlər. Ölkəmizdə də bu istiqamətdə müəyyən işlər həyata keçirilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən dəniz suyunun duzsuzlaşdırılması məqsədilə Salyanın Xıdırlı kəndində xüsusi stansiya qurulub. Həmin qurğu vasitəsilə Ələtdən cənub və qərb istiqamətinə şose yollarının kənarlarına əkilmiş müxtəlif növ ağaclar, meşə zolaqları suvarılır, özü də damcı üsulu ilə. Artıq səmərəsi də var. Əvvəllər yolçunu yoran boz ərazilər getdikcə yaşıllığa bürünür. Deyirlər, gələcəkdə dəniz suyunun tam duzsuzlaşdırılaraq içməli su kimi istifadə edilməsi də mümkün olacaq - nə yaxşı...

Məlum olduğu kimi, əsas çaylarımız - Kür və Araz mənbələrini qonşu ölkələrdən götürür. Nəzərə alsaq ki, son illər həmin ölkələrə qış ayları yağıntılar, xüsusilə qar az düşür, onda problemin səbəbi və ciddiliyi aydınlaşır. Bu yerdə işğaldan azad olunmuş torpaqlarımızdakı daxili su mənbələrimiz müəyyən qədər əlimizdən tutur. Üstəlik, ölkəmizdə yaranmış və gələcəkdə bundan da betər yarana biləcək su qıtlığının aradan qaldırıla bilməsi üçün ardıcıl tədbirlər görülür. Su ilə məşğul olan qurumların - "Meliorasiya və Su Təsərrüfatı" ilə "Azərsu" səhmdar cəmiyyətlərinin birləşdirilməsi sahəyə nəzarəti gücləndirmiş, kadrların məsuliyyətini daha da artırmışdır.

Yeni yaradılmış qurumun Neftçalada fəaliyyət göstərən idarəsinin timsalında bunu aydın görmək olur. Neftçala rayon Su-Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin (SMSİİ) rəisi Təbriz Eyyubov kollektivin yeni idarəçilik sisteminə keçməsi ilə bağlı danışarkən dedi ki, hazırda onlar rayon ərazisində 38 min 158 hektar əkin sahəsinin suvarılması, 8 min 985 abonentin içməli su ilə təchiz edilməsi, habelə 2 min 139 abonentə kanalizasiya xidmətləri göstərilməsi ilə məşğul olurlar. Bu xidmətlərin həyata keçirilməsi üçün əkin sahələrinin optimal müddətdə və keyfiyyətlə suvarılması üzrə 46, içməli su üzrə 7, kanalizasiya xidmətləri üzrə 6 nasos stansiyası mövcuddur. Bunlarla yanaşı, eyni istiqamətlər üzrə 1026 kilometr su kanalından, onların üzərində yerləşən 1394 hidrotexniki qurğudan, 43 sutəmizləyici modul qurğudan, 563 bulaqdan, 156,9 kilometr su şəbəkəsindən və 32,4 kilometr kanalizasiya xəttindən istifadə edilir. Son bir il ərzində 280 kilometrə yaxın suvarma kanalları lildən təmizlənib, 214 kilometrdən çox suvarma kanallarında hamarlama işləri aparılıb. Əhaliyə göstərilən suvarma suyu, içməli su və kanalizasiya xidmətlərinin keyfiyyətinin yüksəldilməsi üçün 75 hidrotexniki qurğu, 15 nasos stansiyası binası, 18 elektrik motoru, 31 nosos aqreqatı, 965 poqonmetr içməli su xətti, 267 poqonmetr kanalizasiya xətti, 5 modul tipli sutəmizləyici qurğu, 13 su bulağı, 85 poqonmetr su bulaqlarının xətti əsaslı və cari təmir edilib.

Rayon ərazisində 42 kəndi əhatə edən 7 min 985 su istifadəçisinə xidmət göstərən 16 Sudan İstifadə Birliyi (SİB) yaradılmışdır. Keçən il onlara rayon SMSİİ tərəfindən 211 milyon 558 min kubmetr su verilib. Bu qədər su ilə 124 min 274 hektar sahədə suvarma aparılıb. Əkilən 18 min 874 hektar dənli bitkilər 1,6, 9 min 470 hektar pambıq sahəsi (aratla birlikdə) 3,5, 7 min 899 hektar yonca sahəsi 5,8, 1600 hektar həyətyanı sahə 7,7 və digər 315 hektar əkinlər 7 dəfə suvarılıb. İl ərzində SİB-lərə qəbul etdikləri suyun miqdarına görə 105 min 77 manat icra aktı tərtib edilib. Həmin aktların əvəzində və əvvəlki illərdən qalan debitor borclar da nəzərə alınmaqla, ümumilikdə, 122 min 888 manat vəsait toplanıb və su pulu yığımına 100 faiz əməl olunub.

Keçən il həmçinin rayon SMSİİ tərəfindən əhaliyə 853 min 699 manatlıq içməli su və kanalizasiya xidməti göstərilib. Bu sahədə də plan tam yerinə yetirilib.

Qeyd edək ki, 2026-cı ildə Neftçalada 7 min 723 hektarda pambıq, 20 min 925 hektarda taxıl, 7 min 723 hektarda yonca və 1976 hektarda digər əkinlərin suvarılması nəzərdə tutulub. Neftçala SMSİİ-nin kollektivi bu işlərin öhdəsindən gəlmək üçün əzmlə çalışır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Ramazan süfrəsində xoş arzular səslənib

**Mingəçevir Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Xarıbülbül" şadlıq sarayında şəhər ictimaiyyətinin nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər, ağsaqqallar üçün iftar süfrəsi açılıb.**



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azad olunması uğrunda həlak olan şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib, dualar oxunub.

Tədbirdə şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov çıxış edərək müqəddəs Ramazan ayının insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırdığını, əmin-amanlıq, bərabərlik yoluna dəvət etdiyini bildirib. Ölkəmizdə Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu müdrik siyasət nəticəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə əmin-amanlığın, sabitliyin bərpa olunduğunu qeyd edib. Yurdumuzun ərazi bütövlüyünün təmin olunmasında fədakarlıqlar göstərən əsgər və zabitlərimizin vətənpərvərliyindən danışaraq, canlarından keçən şəhidlərimizə Allahdan rəhmət diləyib. Tədbir iştirakçılarını və onların timsalında bütün mingəçevirliləri qarşıdan gələn Ramazan və Novruz bayramları münasibətilə təbrik edib, evlərinə ruzi və bərəkət, cansağlığı, xoşbəxtlik, səadət arzulayıb.

Tədbirdə Azərbaycan Ağsaqqallar Şurasının Mingəçevir şəhər şöbəsinin sədri Mustafa Muradov, Heydər məscidinin icma sədri Qurban Vahidov çıxış edərək xoş arzularını çatdırıblar.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Kartofun qiyməti bu sahəyə marağı artırıb

**Əvvəllər Qərb bölgəsində kartof əkini əsasən Gədəbəy və Tovuzda aparılırdısa, artıq bir neçə ildir ki, qonşu rayonlarda, o cümlədən Ağstafada da bu vacib ərzaq məhsulunun istehsalına maraq xeyli artıb. Rayonda bir neçə ildir ki, kartofçuluq üzrə ixtisaslaşma gedir.**

Son illər kartofun sərfəli qiymətə satılması fermerlərdə bu sahəyə əlavə stimul yaratmış, onları daha çox məhsul istehsalına həvəsləndirmişdir. Təkcə keçən il hər hektardan 314 sentner məhsul götürən ağstafalı əkinçilər ümumilikdə 14 min 51,5 ton kartof istehsal etmişlər ki, bu da əvvəlki illərdəkindən xeyli çoxdur.

Hazırda rayonun 26 kəndində 640 hektar sahədə karof əkilir. Məhsuldarlıq yüksəkdir - hər hektardan 30-35 ton kartof götürülür. İstehsal olunan məhsulun satışında da elə bir problem olmur. Yığılan kartofun bir hissəsi elə sahədəcə satılır, özü də yaxşı qiymətə.

Hazırda rayonda ən çox kartof əkən fermerlərdən Elnur Nəbiyev, Əsəd Rzayev, Şahnaz Kaya və başqaları yeni mövsümün əkininə başlamışlar. Onlar əsasən "Arizona", "Abistik", "Anna Koralina" sortlarına üstünlük verirlər. Keçən il olduğu kimi, bu il də torpaq sahibləri əkin sahələrini genişləndirmişlər. Elnur Nəbiyev 100, Əsəd Rzayev 40, Elxan Kazımov 150, Şahnaz Kaya isə 40 hektarda kartof əkməyi planlaşdırmışdır.

Ağstafa Aqrar İnkişaf Mərkəzinin direktoru Ramiz İmanov deyir ki, bu il rayon üzrə 450 hektarda kartof əkini proqnozlaşdırılıb. Artıq fermerlər 400 hektardan çox sahədə səpin aparmışlar. Əkin sürətlə davam edir. Fermerlər əlverişli hava şəraitindən səmərəli istifadə edərək səpini vaxtında və optimal müddətdə başa çatdırmağa çalışırlar.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Gəncədə beynəlxalq konfrans keçirilib

**Gəncədə I Türkoloji Qurultayın 100 illiyi və dahi Azərbaycan şairi Nizami Gəncəvinin anım günü ilə bağlı beynəlxalq konfrans keçirilmişdir.**

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyevin, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztopun, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin rəisi Nail Məmmədovun, Nizami Gəncəvi Muzeyinin direktoru Teymur Əliyevin, AMEA-nın Gəncə bölməsinin sədr müavini Əlimuxtar Muxtarovun, eləcə də elm və mədəniyyət xadimlərinin iştirakı ilə keçirilən konfransın iştirakçıları əvvəlcə Nizami Gəncəvi məqbərəsini ziyarət edərək böyük mütəfəkkirin məzarı üstünə gül dəstələri düzmüşlər.



Sonra I Türkoloji Qurultayın türk dünyasının elm və mədəni inkişafındakı rolundan, eləcə də Nizami Gəncəvinin zəngin ədəbi irsinin bəşəri əhəmiyyətindən bəhs edən məruzələr dinlənilmişdir.

*"Azərbaycan"*




# İlaxır çərşənbə - bərəkət və bolluq rəmzi Torpaq

**Novruz çərşənbələrinin sonuncusu Torpaq çərşənbəsidir. Xalq arasında bu çərşənbə "Axır çərşənbə","Yer çərşənbəsi","Çərşənbə-suri" və s. adlarla daha təmtəraqla keçirilir. Torpaq ümumtürk mənəvi-əxlaqi dəyərlər sistemində vətən, el-oba, yurd anlayışları ilə yanaşı, həm də mifik semantik sakrallığı əks etdirir. Bu çərşənbə Torpağın oyanmasını, dirilməsini şərtləndirir.**




Mifik təsəvvürlərə görə, torpağın oyanması nəticəsində Su, Atəş, Yel bütün Yer üzünü dəyişir, insanları çətinlikdən, sıxıntı və məhrumiyyətlərdən xilas etmək üçün daha da qüvvətlənir. Belə mətnlərdən birində deyilir: "Adamların məhrumiyyət və qıtlıqdan əziyyət çəkdikləri bir gündə Sel, Atəş, Yel Torpaq xatunun yeraltı məbədinə qonaq gəlirlər. Burada yatmış Torpaq xatunu oyadıb adamların aclıq və qıtlıq çəkdiklərini ona söyləyirlər. Torpaq xatun "Adamları fəlakətə salan özü fəlakətə düşər" deyib yerindən qalxır, Sel, Atəş, Yel və Torpaq xatun əl-ələ verib: "Zəmzəm gəldi, Atəş gəldi, Yel gəldi, təzə ömür, təzə məhsul, il gəldi, - deyib işıqlı dünyaya çıxırlar. Deyirlər ki, həmin gün ilin əziz günü olan İlaxır çərşənbə idi".

Dünya xalqlarının mifoloji düşüncəsində Torpaq əsas yaradıcı qüvvələrdən biri kimi təsəvvür olunur. Məsələn, hind mifologiyasında torpaq - Ana torpaq adlanır. Yaz mövsümündən bir qədər əvvəl məhsuldarlığın bol olması üçün torpağa dualar oxunur, gil və su qarışığı torpağa tökülür, bəzən də tanrılara qurbanlar verilir. Homer və digər yunan şairləri torpağı həyat mənbəyi və məhsuldarlıqla bağlı təsvir ediblər. Afrika xalqlarının mifik təsəvvürlərində insan və heyvanların yaradılışında gil, su, qum , bəzən də od iştirak edib. Türk xalqlarının mifik mətnlərində Torpaq həm yaradıcı, həm də qoruyucu varlıq kimi təsəvvür olunur, əkin və məhsuldarlıq mərasimləri keçirilib. Məsələn, əkinə başlamazdan əvvəl torpağa dualar oxunur, torpağa süd, bal və un tökülərdi ki, məhsul bol- bərəkətli olsun. Altay, Sibir və Mərkəzi Asiya xalqlarının mifoloji ənənəsində Torpaq Ana - "Yer Ana" həyatın və məhsuldarlığın rəmzi kimi qəbul olunurdu.

Azərbaycanda Novruz çərşənbələri ilə bağlı bir çox mifik folklor mətnləri var ki, onların da əksəriyyətində xeyirxah obraz kimi boz atlı Xızır iştirak edir. İlaxır çərçənbə, yaxud Torpaq çərşənbəsilə bağlı mətnlərdə də Xızır xilaskar bir obraz olaraq göydən yerə enir. Bir mətnə görə, "Xızırın qardaşı, yer sahibi Zinda öküzünü itirir və onu axtarmaq üçün meşəyə yollanır. Öküzünü tapa bilməyən Zinda meşədə qar yağdığına görə qarın altında qalır. Həmin gecə boz atlı Xızır göyün doqquzuncu qatından yerə enib qardaşını axtarmağa başlayır, onu tapır və nəfəsilə qızdırır. Zinda öküzünü də axtarıb tapır, hamı Zindanın evinə gəlir. Axşam Xızır qızıldan tökülmüş kotan və boyunduruğu qardaşına verir, çərşənbələşdikdən sonra Xızır Zinda, yaxud Xızırzinda adı ilə bayram keçirib torpağı oyatmağa çalışırlar". İnama görə, İlaxır çərşənbədə Xızırzinda insanlara bərəkət paylayır, ona görə də bütün evlərdə un çuvallarının ağzını açardılar ki, paylanan bərəkətdən onlara da pay düşsün. Həmin günün özünəməxsus ayin- ritualları vardır. Məsələn, ev sahibləri heç kimlə kəlmə kəsmədən əllərini una vurub evin divarlarına, həyətdəki meyvə ağaclarının kötüyünə yavaşca balta ilə toxunub "Nə yatmısan, oyan, bərəkət payını götür" deyərdilər. Bağçadakı bar verməyən ağaca isə "kəsəcəyəm" deyib hədə-qorxu gələrdilər, bu zaman bir başqa adam sanki Xızırzindanın dilindən belə deyirdi: "Kəsmə, bu ağac təzə ildə bar verəcək, buna mən zamin..."

Novruzun arxaik atributları arasında səməni xüsusi yer alıb. Səməni bolluq-bərəkət, ruzi, yaşıllıq və yazın gəlişinin rəmzidir. Yunan filosofu Plutarx (bizim eranın təqribən 46-127-ci illəri) Midiyada - qədim Azərbaycanda taxılı müqəddəs bitki saymaq ənənəsinin olduğunu göstərmişdir. Bu, hər yeni ilin əvvəlində, yəni yazda icra edilərdi. Bu, səməni göyərtmək şəklində bizim günlərə qədər gəlib çıxmışdır. Səməni insanların arzu-istəklərini həyata keçirən bir nemət kimi xalq təfəkkürünə daxil olmuşdur:

*Səməni, ay səməni,*
*Göyərdərəm mən səni.*
*Sən gələndə yaz olur,*
*Yaz olur, avaz olur*

Novruzda səməni cücərdib qohum-əqrəbaya, qonum-qonşuya paylamaq ənənə halını almışdır. İnama görə, əgər səməni sıx, düz bitərsə, təzə il bolluq-bərəkət ili olar, əksinə bir az seyrək bitərsə, bu, həmin ildə çətinliklərin olacağına işarə kimi qəbul edilirdi.

Azərbaycanın bəzi bölgələrində Torpaq çərşənbəsində buğdadan "səməni mayası" adlı təam hazırlanardı. Buna səməni həlimi, yaxud maya səməni də deyərdilər. Bu səməni çəmənlikdə və ya pir və məscidlərin yanında bişirilərdi. İlaxır çərşənbə axşamı gecədən sübhə qədər insanlar bir yerə cəmlənər, "səməni toyu" keçirərdilər. Yaşlı qadınlar səməni mayası bişən qablara yaxınlaşıb nəmər qoyub təzim edər, sağ əllərini üç dəfə qazanlara, sonra dodaq və alınlarına çəkərdilər ki, bu adətə "qazan ziyarəti" deyilərdi. Mifik təsəvvürlərə görə, Xızırzinda gəlib səməni mayasını qəbul edəcək, ona görə də qazanların üstünə un qoyardılar ki, Xızırzindanın əlinin izi burada görünsün. Səməni mayası sübh tezdən yeyilərdi, əvvəlcə xəstələrə və övladı olmayan gəlinlərə verilərdi. Səməni mayası, şirin, dadlı olurdusa, Xızırzinda tərəfindən qəbul edilmiş hesab edilirdi. Səməni mayasını həm də ömrü uzadan, sağlamlığa müsbət təsir göstərən "Xızırzinda çiçəyi" də adlandırırdılar.

Novruz süfrəsinin digər bir atributu yumurtadır. Mifik düşüncədə yumurta yaradılış və həyat rəmzidir. Şərq xalqlarının, o cümlədən türk xalqlarının mifoloji təsəvvürlərində dünyanın yaranması yumurtadan çıxmış quşla əlaqələndirilir. Bu quş Altay xalqlarında müqəddəs Qaz adlandırılır. Türkdilli xalqlar arasında qartal quşların xaqanı sayılırdı.Yakutlar isə hesab edirlər ki, şamanlar qartal yumurtasından törəyib, ona görə də qartalı Tanrı hesab edirdilər.

Zərdüştilərin müqəddəs hesab etdikləri "Avesta"da da "dünya yumurtası" anlayışı mövcuddur. Yumurta dörd varlığı özündə daşıyır, ilkin təsəvvürləri əks etdirir. Yumurtanın həm quruluşu, həm də qabığı Torpağın, qabığın altında olan nazik pərdəsi Havanın, ağı Suyun, sarısı isə Odun rəmzidir. Novruz süfrəsini bəzəyən boyanmış yumurtalar ilin fəsillərini rəmzləndirir.

Novruz ilkinlik, başlanğıc və yeni həyatla əlaqəli təqvim bayramıdır, ona görə də dünyanın yaranması ilə bağlı ayin, etiqad və mərasimləri bütün dünyada tanıtmağa imkan verir. Təsadüfi deyil ki, keçən əsrin 80-ci illərində Azərbaycana səfər edən əcnəbi antropoloq Tur Heyerdala Qobustanda Novruz xonçası təqdim edilərkən o, öz heyrətini gizlədə bilməmiş və xonçanın önündə diz çökərək "Əcəba, bu, dünyanın bəzədilmiş simvoludur, siz nə qədim xalqsınız!" deyə bildirmişdir.

Torpaq çərşənbəsində silsilə ayin və mərasimlər yerinə yetirilərdi.Yerin altından "çilləxana" adlı dar yol açıb, səhər tezdən "ağırlığımı yer götürsün, mətləbimi Allah versin" deyib həmin yeraltı yoldan keçəndən sonra alma yeyilməliydi. İnsanlar öz müşküllüklərini sanki Torpağa tapşırıb "ölüb dirilirdilər", inisasiya prosesindən keçib yenilənirdilər. Bu ritual sonralar da böyüklər tərəfindən icra olunardı, xüsusən el arasında yolunu azanları Torpaqdan halallıq almaq və islah olunmaq məqsədilə həmin çilləxanalardan keçirərdilər.

Torpaq çərşənbəsində "Cütçü şumu", yaxud "Əkin toyu", "Səpin toyu" adlanan böyük bir mərasim keçirilərdi. Mərasimin baş qəhrəmanı Cütçü baba, yaxud Gilbaba, Turab baba olmuşdur. Rəvayətə görə, Cütçü baba ilk dəfə insanlara taxıl əkib-biçməyi öyrətmiş hesab edilməsidir. Bu mərasimdə Cütçü baba vəzifəsini icra etmək üçün elin hörmətli adamı seçilərdi. Səhər-səhər "Cütçü baba" mərasimi başlanmazdan əvvəl hamı hazırlaşardı. Ayinə görə, iydə, yaxud ərik ağacından düzəldilən bir cütü, qarakotanı günün altında qoyub onu qırmızı parça ilə bəzəyərdilər. Mərasimdə şum alətinin vəsfinə həsr olunmuş "Cüt gözəlləməsi" də oxunardı. Sonra bir cüt ağ öküz gətirib, ayaqlarını qırmızı parçalarla bəzəyib kotana qoşardılar. Daha sonra mərasimə Cütçü baba, yaxud Xızırzinda təşrif buyurur.

Torpağın oyanmasını əks etdirən İlaxır çərşənbə Azərbaycanın bir çox bölgəsində Novruz bayramı ilə eyni təmtəraqla keçirilir, yəni ilaxır çərşənbə zəngin mərasim, oyun, tamaşa sistemi daxilində keçirilir. İlaxır çərşənbə axşamı digər çərşənbələrdən daha çox ayin icra edilir, tonqallar qalanır, kütləvi bayram məclisləri təşkil olunur. Həmin ayinlərdən biri də İlaxır çərşənbə günü axşam bütün həyətlərdə tonqal qalamaqdan ibarətdir. Tonqal üç yerdə qalanır. İlaxır çərşənbə süfrəsinin və çərşənbə xonçasının bəzədilməsi xüsusi önəm daşıyır. Məlumdur ki, Novruzun əsas şirniyyatları şəkərbura, paxlava, qoğal, şəkərçörəyi və s.dir. Novruz şirniyyatlarının hər birinin öz semantik mənası vardır, şəkərbura ayın, qoğal günəşin, paxlava isə ulduzların rəmzidir. Bunlar arasında ən çox növü olan paxlavadır: Bakı paxlavası, Quba paxlavası, Şəki paxlavası, Gəncə paxlavası, riştə paxlavası və s. İlaxır çərşənbə və Novruz süfrəsində hər evdə mütləq bayram plovu bişməlidir.

İlaxır çərşənbə axşamında bir çox ritual icra edilərdi ki, onların bir qismi bu gün də xalq arasında qorunub saxlanmışdır. Qulaq falı, qapı pusmaq və s. belə ayinlərdəndir. İlaxır çərşənbə axşamı küsülülər barışarlar. Gecə təbiətdə nə varsa, hamısı təzələnir.

İlaxır çərşənbə axşamı dayanıb qonşunun qapısını pusurlar. Qapıya yaxınlaşarkən eşidilən ilk sözü və ya bir neçə sözü yozub bəxt haqqında müəyyən fikirlər söyləyirlər, məsələn, ilk eşidilən sözlər "işığı yandır", "yaxşı olacaq" və s. olarsa, hər şeyin yaxşı olacağı güman edilir. İlaxır çərşənbə axşamı subay qızlar duzlu kökə yeyib su içmirlər. Gecə yuxuda kökə yeyənə su verən insan yuxu görənin "qismətidir" kimi qəbul olunur. Başqa bir inama görə, İlaxır çərşənbədə otuzluq lampanın altına qıfıl bağlayıb qoyurlar, niyyət edib gözləyirlər. Kim qapını açıb birinci evə daxil olarsa, onun ilk sözü niyyətə görə yozular. Novruzda İlaxır çərşənbə günü "iynə süzdürüb", "çillə çıxarırlar", hamı deyib-gülür şənlənir. Hər kim yatdı, onu yatdığı yerə tikirlər, sonra da üstünə su töküb ayıldırlar və s.

Şərq, türk və bir çox dünya xalqlarının mədəniyyətində Torpaq anlayışı Vətən və doğma yurdun əsas rəmzlərindən biridir. Türk xalqlarında Torpaq zəngin mənəvi dəyərdir, həm də ruhi bir bağ kimi qəbul olunur. İnsanla Torpaq arasında mənəvi əlaqənin olması torpağın həm həyat təminatçısı , həm də qoruyuculuq funksiyasını daşıması kimi qəbul edilir. Torpaq milli şüurun əsas rəmzlərindən olduğuna görə, xalq ədəbiyyatı nümunələrində torpağa bağlılıq, vətən, el, yurd sevgisi bariz şəkildə əks olunmuş, arxaik ritual və mərasimlərlə, ayin - etiqadlar silsiləsində xalq təfəkkürünə həkk olunmuşdur.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru***

# Novruz tonqallarının işığında...

**Azərbaycan xalqının minilliklərdən süzülüb gələn zəngin mənəvi irsi içərisində baharın gəlişini müjdə verən Novruzun xüsusi yeri var. Bu bayram yalnız təqvim hadisəsi deyil, təbiətin oyanışını, həyatın yenilənməsini və insanın ruhunda baş verən mənəvi saflaşmanı ifadə edən dərin fəlsəfi məna daşıyır. Baharın nəfəsi ilə torpaq canlanır, ağaclar tumurcuqlayır, həyat yenidən doğulur. Elə buna görə də xalq təfəkküründə Novruz baharın özü, ruzi və bərəkət, ümid və barış, yeni arzuların başlanğıcı kimi qəbul edilir.**



Novruz minilliklər boyu formalaşmış zəngin adət-ənənələri, mərasimləri və rəmzləri ilə Azərbaycan xalqının mədəni yaddaşında mühüm yer tutur. Bu bayramın kökləri qədim dünyanın təbiətə bağlı həyat tərzinə, insanın torpaq, su, od və yel kimi təbii ünsürlərlə harmoniyasına dayanır. Təsadüfi deyil ki, Novruza aparan yol xalq təqvimində dörd müqəddəs çərşənbə ilə müşayiət olunur. Su, Od, Yel və Torpaq çərşənbələri təbiətin mərhələli oyanışını, kainatın ilkin ünsürlərinin yenilənməsini simvolizə edir. Hər bir çərşənbə xalq inanclarında, mərasimlərində və folklorunda özünəməxsus məna və rəmzi çalarlar daşıyır. Xalq inanclarına görə, kainatın əsasını təşkil edən bu dörd ünsür baharın gəlişi ərəfəsində bir-bir oyanaraq təbiətə yeni nəfəs verir. Bu ardıcıllıq insan düşüncəsində də özünəməxsus fəlsəfi məna qazanır: əvvəlcə su həyat gətirir, sonra od istilik və işıq verir, yel təbiəti hərəkətə gətirir və nəhayət, torpaq oyanaraq bütün varlığa həyat bəxş edir.

İlk çərşənbə - Su çərşənbəsi xalq arasında "əzəl çərşənbə" kimi də tanınır. İnanca görə, həmin gün sular yenilənir, bulaqlar, çaylar və arxlar canlanır. İnsanlar səhər tezdən axar su üstünə gedir, su ilə üzlərini yuyur, bir-birinə su çiləyərək təmizliyin və paklığın rəmzi kimi qəbul edirlər. El arasında deyildiyi kimi: "Su axar, dərd aparar". Bu gün sanki su yalnız torpağı deyil, insanın qəlbini də saflaşdırır.

Ardınca gələn Od çərşənbəsi qədim türk dünyagörüşündə müqəddəs sayılan odla bağlıdır. Həyətlərdə tonqallar qalanır, insanlar odun üzərindən atlanaraq köhnə ilin ağırlığını və dərdini geridə qoymaq istəyirlər. Tonqalın alovu qaranlığı və soyuğu qovur, yeni günün işığını müjdələyir. Bu mərasim xalq yaddaşında belə ifadə olunur:

*Ağırlığım-uğurluğum odda qalsın,*
*Od məni paklasın, dərd məndən uzaq olsun.*

Üçüncü Yel çərşənbəsidir. Xalq inanclarına görə, həmin gün yel oyanır, küləklər əsir və təbiəti hərəkətə gətirir. Yel əsdikcə ağacların budaqları tərpənir, sanki təbiət baharın gəlişinə hazırlaşır. Xalqımızın yaddaşından süzülüb gələn bu deyim də bunu təsdiqləyir: "Yel əsməsə, yarpaq tərpənməz".

Dördüncü və sonuncu Torpaq çərşənbəsi, yaxud İlaxır çərşənbə hesab olunur. Bu gün artıq baharın nəfəsi daha aydın hiss edilir. Xalq inanclarına görə, torpaq oyanır, nəfəs alır və yeni həyatın başlanğıcını xəbər verir. Əkinçi üçün bu gün torpağın bərəkət və bolluq vəd edən başlanğıcı deməkdir. İnsanlar evlərini, həyətlərini səliqəyə salır, ağac əkir, torpaqla bağlı işlər görür, sanki təbiətin dirçəlişinə qoşulurlar.

Tarix boyu Novruz bayramı xalqımızın milli kimliyinin mühüm rəmzlərindən olmuşdur. Lakin sovet hakimiyyəti dövründə bu bayramın keçirilməsi müəyyən dövrlərdə qadağan edilmişdi. Sovet ideologiyası insanları milli köklərindən və ənənələrindən uzaqlaşdırmaq, onların düşüncəsini vahid ideoloji çərçivəyə salmaq məqsədilə Novruz kimi qədim bayramların keçirilməsini məhdudlaşdırmışdı. Buna baxmayaraq, Azərbaycan xalqı bu bayramı heç vaxt unutmamışdı. Qadağalara rəğmən insanlar Novruzu gizli şəkildə qeyd edir, öz adət-ənənələrini, milli kimliyini qoruyub saxlayırdılar.

1960-cı illər Azərbaycanda milli düşüncənin yenidən oyanmağa başladığı dövr idi. Həmin illər respublikaya rəhbərlik edən Vəli Axundov və görkəmli ictimai xadim Şıxəli Qurbanov Sovet İttifaqında siyasi ovqatın nisbətən yumşaldığını hiss edərək Novruz bayramının yenidən açıq şəkildə qeyd olunması üçün təşəbbüs göstərdilər. Azərbaycana rəhbərlik edən Heydər Əliyev dövründə isə milli-mənəvi dəyərlərə qayıdış prosesi daha da gücləndi. Novruz bayramı rəsmi səviyyədə qeyd olunmağa başladı. Artıq insanlar bu bayramı açıq və təntənəli şəkildə qeyd edir, qədim adət-ənənələr yenidən dirçəldilirdi. Bu illər xalqın öz köklərinə, milli kimliyinə və mədəni irsinə dönüş dövrü kimi yadda qaldı.

Müstəqil Azərbaycanın bu günündə Novruz bayramı milli birlik və həmrəyliyin rəmzi kimi qeyd olunur. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva hər il Novruz bayramını xalqla birlikdə qarşılayır, bu qədim bayramın ruhunu və mənəvi dəyərini yaşadırlar. Xüsusilə son illərdə Novruz tonqallarının işğaldan azad edilmiş Qarabağ torpaqlarında qalanması böyük rəmzi məna daşıyır. Bu torpaqlarda alovlanan Novruz tonqalları həm tarixi ədalətin bərpasının, həm də torpağın yenidən dirçəlişinin rəmzi kimi xalqın qəlbini sevinc və qürur hissi ilə doldurur.

Beləliklə, Novruz yalnız təqvimdə bir bayram günü deyil, xalqımızın minilliklər boyu qoruyub saxladığı mənəvi sərvət, həyat fəlsəfəsi və milli kimliyinin parlaq təcəssümüdür. Su, od, yel və torpaq kimi müqəddəs ünsürlərin oyanışı ilə başlayan bu mərasimlər insanı təbiətlə yenidən qovuşdurur, qəlblərə ümid, evlərə bərəkət gətirir. Zaman dəyişsə də, əsrlər keçsə də, Novruz bayramı Azərbaycan xalqının yaddaşında yenilənmənin, birlik və ümidin əbədi rəmzi kimi yaşayır.

***Sevda AXUNDOVA,***
***ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktor müavini***

# Sumqayıtda "Kənddən şəhərə" yarmarkası təşkil edilib

**Novruz və Ramazan bayramları ilə bağlı Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən Sumqayıtda "Kənddən şəhərə" yarmarkası keçirilir.**



Yarmarkanın təşkilində əsas məqsəd bayram günlərində yerli fermer və istehsalçıların məhsullarının bazara çıxışını dəstəkləmək, eyni zamanda şəhər sakinlərinin təbii, yerli və sağlam kənd təsərrüfatı məhsulları ilə təminatını asanlaşdırmaqdır. Yarmarkada ölkənin müxtəlif bölgələrindən gətirilən meyvə-tərəvəz, ət və süd məhsulları, bal, quru meyvələr və digər kənd təsərrüfatı məhsulları alıcılara təqdim olunur.

Qeyd edək ki, yarmarkada iştirak edən fermerlər piştaxta, tərəzi və digər zəruri avadanlıqlarla ödənişsiz şəkildə təmin olunublar. Onlara gətirdikləri məhsulu rahat satmaları üçün bütün şərait yaradılıb. Qiymətlər isə qənaətbəxşdir. Ona görə də paytaxtın Sumqayıta yaxın kənd və qəsəbələrinin sakinləri də buradan bazarlıq edirlər. Yarmarkada Təmizlik Departamentinin 10-a yaxın əməkdaşı çalışır ki, bu da ətrafda ekoloji təmizliyi təmin edir. Səhər saat 9-dan axşam 21-dək fəaliyyət göstərən yarmarkanın girəcəyində Novruz atributları Kosa və Keçəl insanları qarşılayır, onlarda xoş ovqat yaradır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Paytaxtın abad məhəllələrində Novruz şənlikləri davam edir

**Novruz bayramı ənənəvi olaraq ölkəmizin bütün güşələrində olduğu kimi, paytaxtımız Bakı şəhərində də geniş qeyd edilir. Bununla əlaqədar paytaxtın bütün rayonlarında bayram şənlikləri və konsert proqramları təşkil olunur. Bu şənliklər öz kütləviliyi ilə seçilir.**






Ənənəvi bayram tədbirlərindən biri də Bakı şəhərinin Sabunçu rayonu Bakıxanov qəsəbəsində, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Bizim həyət" layihəsi çərçivəsində yaradılan məhəllədə qeyd edilib.

Məhəllə sakinləri, ağsaqqallar, şəhid ailələrinin üzvləri, qazilər bayramı yüksək sevinc hissi ilə qeyd ediblər. Bayramda Novruz atributları, milli mətbəximizin və geyimlərimizin nümunələri nümayiş etdirilib, rəqqaslar, nağaraçılar və zurnaçılar qrupları öz məharətlərini göstərib, müğənnilər müxtəlif mahnılar səsləndirib, Kosa, Keçəl və Bahar qızı tədbirə toplaşanları şənləndirib və bayram tonqalının ətrafında sakinlərlə birgə rəqs ediblər. Uşaqlar və iştirakçılar yumurta döyüşdürüblər.

Qeyd edək ki, son illərdə paytaxtda 400-ə yaxın abadlaşdırılmış həyət yaradılaraq sakinlərin istifadəsinə verilib. Bu həyətlərdə sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb. Novruz ərəfəsində abad məhəllələr bayramsayağı bəzədilib, səməni, Novruz şirniyyatları olan süfrələr açılıb, bayram ab-havası yaradılıb.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi
## AZ-MLSPP-497370-CS-QCBS
## Müqavilə barədə bildiriş

**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**Layihə:** Məşğulluğa Dəstək Layihəsi
**Müqavilənin adı:** Biznes təlim modullarının yenilənməsi, biznes təlimlərin təşkili, ÖMP xüsusi peşə təlim materiallarının hazırlanması və tətbiqi üzrə Məsləhət Xidmətlərinin satın alınması
**Ölkə:** Azərbaycan
**Kredit №:** AZ-9712
**RFP №:** AZ-MLSPP-497370-CS-QCBS

Hazırkı bildiriş Məşğulluğa Dəstək Layihəsi çərçivəsində Biznes təlim modullarının yenilənməsi, biznes təlimlərin təşkili, ÖMP xüsusi peşə təlim materiallarının hazırlanması və tətbiqi üzrə Məsləhət Xidmətlərinin satın alınması ilə bağlı keçirilmiş açıq tender prosesini, qiymətləndirmə nəticələrini və müqavilənin təltif edilməsi məlumatlarını əks etdirir.

Satınalan təşkilat maraq ifadələrinin təqdim edilməsi üçün 24 iyun 2025-ci il tarixində "Azərbaycan" qəzetində, "Azerweb" portalında və Dünya Bankının saytında elanlar yerləşdirilmişdir. Elan nəticəsində ümumilikdə 13 maraq ifadəsi qəbul olunmuşdur. Qısa siyahıya daxil edilmiş aşağıdakı məsləhət şirkətlərinə Təklif üçün Dəvət (RFP) göndərilmiş və təqdim etmə tarixi 13 noyabr 2025-ci il tarixi müəyyən olunmuşdur:

- DAI Global MMC (ABŞ)
- ICON-INSTITUT GmbH və sub-konsultant SAGE SOLUTIONS MMC (Almaniya/Azərbaycan)
- EPTISA Mühendislik Ltd. Şti, (BM-in aparıcı qurumu) və EPTISA Servicios de Ingenieria, S.L. (Türkiyə/İspaniya)
- Latvian Chamber of Commerce and Industry, (BM-in aparıcı qurumu) və Accelerated Career Academy MMC (Latviya/Azərbaycan)
- UT Consultants Co. Ltd., (BM-in aparıcı qurumu) və İÇERİK Training Research and Consulting Ltd. (Türkiyə)

Məsləhətçinin seçimi Keyfiyyət və Qiymət Əsaslı Seçim (KQƏS/QCBS) metodu ilə aparılmışdır. Dəvət göndərilən şirkətlərdən biri "DAI Global" MMC LİQ-ə müraciət edərək təklif təqdim etməyəcəyini bildirmişdir. Qısa siyahıya salınmış digər şirkət "EPTISA Mühendislik Ltd. Şti, (BM-in aparıcı qurumu) və EPTISA Servicios de Ingenieria, S.L." təklifi müəyyən edilmiş son tarixdən gec təqdim olunduğuna görə qəbul edilməmişdir.

Beləliklə, qısa siyahıya daxil edilmiş aşağıdakı 3 iddiaçı texniki təkliflərini müəyyən olunmuş zaman ərzində təqdim etmişdir və 13 noyabr 2025-ci il yerli vaxtla saat 15:00-da açılmışdır. Texniki təkliflərin qiymətləndirilməsi nəticəsində məsləhətçilərə aşağıdakı texniki ballar verilmişdir:

- ICON-INSTITUT GmbH və sub-konsultant SAGE SOLUTIONS MMC - 70.75 bal
- Latvian Chamber of Commerce and Industry, (BM-in aparıcı qurumu) və Accelerated Career Academy MMC - 81.98 bal
- UT Consultants Co. Ltd., (BM-in aparıcı qurumu) və İÇERİK Training Research and Consulting Ltd. - 74.97 bal

İddiaçılar tərəfindən təqdim edilmiş qiymətlər aşağıdakı kimidir:

| No. | İddiaçı | Elan olunmuş təklif dəyəri | Qiymətləndirilmiş təklif dəyəri |
|---|---|---|---|
| 1 | ICON-INSTITUT GmbH və sub-konsultant SAGE SOLUTIONS MMC (Almaniya/Azərbaycan) | 7.438.469,11 Avro | 16.284.461,87 AZN |
| 2 | Latvian Chamber of Commerce and Industry, (BM-in aparıcı qurumu) və Accelerated Career Academy MMC (Latviya/Azərbaycan) | 3.498.120,00 ABŞ dolları | 5.946.804,00 AZN |
| 3 | UT Consultants Co. Ltd., (BM-in aparıcı qurumu) və İÇERİK Training Research and Consulting Ltd. (Türkiyə) | 3.796.000,00 ABŞ dolları | 6.453.200,00 AZN |

Satınalma Komissiyası maliyyə təkliflərini qiymətləndirmiş və "Latvian Chamber of Commerce and Industry və Accelerated Career Academy MMC" BM ilə müqavilənin imzalanmasını tövsiyə etmişdir. Uğursuz iddiaçılara tenderin nəticələri haqqında bildirişlər 05 fevral 2026-cı il tarixində göndərilmişdir. Gözləmə müddəti 06-19 fevral 2026-cı il tarixləri arasında tətbiq edilmişdir. Bu vaxt ərzində Layihə İcra Qrupuna heç bir şikayət/aydınlaşdırma sorğusu daxil olmamışdır. Gözləmə müddəti bitdikdən sonra qalib gələn iddiaçıya müqavilə imzalanması barədə bildiriş göndərilmişdir. Keçirilmiş müsabiqə nəticəsində 10 mart 2026-cı il tarixində aşağıdakı müqavilə imzalanmışdır:

*Latvian Chamber of Commerce and Industry (BM-in aparıcı qurumu) və Accelerated Career Academy MMC BM - Cəmi dəyəri ƏDV daxil - 4.127.781,60 ABŞ dolları (dörd milyon yüz iyirmi yeddi min yeddi yüz səksən bir dollar və altmış sent). Müqavilənin müddəti - 10.03.2026 - 31.12.2029.*

## Ministry of Labor and Social Protection of Population / Employment Support Project
## AZ-MLSPP-497370-CS-QCBS
## AWARD NOTICE

**Purchaser:** Ministry of Labor and Social Protection of Population
**Project:** Employment Support Project
**Contract title:** Update of business training modules, organization of business trainings, development and delivery of SEP specific vocational training.
**Country:** Azerbaijan
**Loan No.:** AZ-9712
**RFP No:** AZ-MLSPP-497370-CS-QCBS

This notice includes the RFB process conducted for the procurement of consulting services for the update of business training modules, organization of business trainings, development and delivery of SEP special vocational training under the Employment Support Project (ESP), as well as the evaluation results and contract award information.

The Procuring Agency published the request for expressions of interest on 24 June 2025 in the "Azerbaijan" newspaper, on the "Azerweb" portal, and on the World Bank website. As a result of the announcement, a total of 13 expressions of interest were received. The Request for Proposals (RFP) was sent to the following consulting firms shortlisted, and the proposal submission deadline was set for 13 November 2025:

- DAI Global LLC (USA)
- ICON-INSTITUT GmbH, with subconsultant SAGE SOLUTIONS LLC (Germany/Azerbaijan)
- EPTISA Mğhendislik Ltd. ti, Leader of the JV, EPTISA Servicios de Ingenieria, S.L. (Turkiye/ Spain)
- Latvian Chamber of Commerce and Industry, Leader of the JV, Accelerated Career Academy LLC (Latvia/Azerbaijan)
- UT Consultants Co. Ltd. Leader of the JV, ZER K Training Research and Consulting Ltd (Turkiye)

Selection of consultants was carried out using the Quality and Cost Based Selection (QCBS) method. One of the invited applicants, "DAI Global" LLC, informed the PIU that it would not submit a proposal. Another shortlisted applicant, "EPTISA Mğhendislik Ltd. ti, Leader of the JV, EPTISA Servicios de Ingenieria, S.L." was not accepted as its proposal was submitted after the specified deadline.

Accordingly, the following three shortlisted applicants submitted their technical proposals within the specified time, and the proposals were opened on 13 November 2025 at 15:00 (local time). As a result of the evaluation of technical proposals, the following technical scores were awarded to the applicants:

- ICON-INSTITUT GmbH, with subconsultant SAGE SOLUTIONS LLC – 70.75 score
- Latvian Chamber of Commerce and Industry, Leader of the JV, Accelerated Career Academy LLC – 81.98 score
- UT Consultants Co. Ltd. Leader of the JV, ZER K Training Research and Consulting Ltd – 74.97 score

The prices submitted by the applicants are as follows:

| No. | Name of Applicant | Proposal Price as Read Out | Evaluated Proposal Price |
|---|---|---|---|
| 1 | ICON-INSTITUT GmbH, with subconsultant SAGE SOLUTIONS LLC (Germany/Azerbaijan) | 7.438.469,11 EUR | 16.284.461,87 AZN |
| 2 | Latvian Chamber of Commerce and Industry, Leader of the JV, Accelerated Career Academy LLC (Latvia/Azerbaijan) | 3.498.120,00 USD | 5.946.804,00 AZN |
| 3 | UT Consultants Co. Ltd. Leader of the JV, ZER K Training Research and Consulting Ltd (Turkiye) | 3.796.000,00 USD | 6.453.200,00 AZN |

The Evaluation Committee evaluated the financial proposals and recommended the contract award to Latvian Chamber of Commerce and Industry, Leader of the JV, Accelerated Career Academy LLC. Notices on the tender results were sent to the unsuccessful bidders on 5 February 2026. A standstill period was applied from 6 to 19 February 2026. During this period, the Project Implementation Unit did not receive any complaints or requests for clarification. After the standstill period ended, the successful applicant was notified to proceed with contract signing. As a result of the competition, the following contract was signed on 10 March 2026:

*Latvian Chamber of Commerce and Industry, Leader of the JV, Accelerated Career Academy LLC - Total cost including VAT – USD 4.127.781.60 (four million one hundred twenty-seven thousand seven hundred eighty-one dollars and sixty cents). Contract duration - 10.03.2026 - 31.12.2029.*

# Hirkan qəsəbəsində əmək yarmarkası: 20 vakansiya, 30 müraciət

**Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) dəstəyi və Lənkəran-Astara Regional Məşğulluq filialının təşkilatçılığı ilə "Green Plant" MMC-nin (Astaraçay) sifarişi əsasında növbəti əmək yarmarkası keçirilib.**




Əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində həyata keçirilən yarmarkada işəgötürən tərəfindən 20 vakansiya elanı verilib. 30-a yaxın işsiz və işaxtaran vətəndaş yarmarkaya müraciət edib. Onlarla ilkin görüş keçirilib və uyğun namizədlər növbəti mərhələyə dəvət olunub.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## BİLDİRİŞ

Bildiririk ki, qeydiyyat nömrəsi 28 iyun 2006-cı il 0706-QZ2-04 Pərvanlı SİB, qeydiyyat nömrəsi 11 noyabr 2006-cı il tarixdə 0706-QZ2-08 olan Yarməmmədbağı-Ləlıəağacı SİB-ə;

qeydiyyat nömrəsi 07 noyabr 2006-cı il 0706-QZ2-07 Dəliquşçu-Dəkkəoba SİB, qeydiyyat nömrəsi 30 aprel 2009-cu il tarixdə 630009-Q1-0002 olan Dəkkəoba SİB-ə;

qeydiyyat nömrəsi 08 dekabr 2006-cı il 0706-QZ2-10 olan Körpükənd SİB, qeydiyyat nömrəsi 07 dekabr 2009-cu il tarixdə 0706-QZ2-09 olan ÇTZ SİB-ə birləşdirilib.

***Rəhbərlik***

# Hava şəraiti dəyişkən buludlu olacaq

**Azərbaycan ərazisində martın 17-nə gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumat görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 5-8, gündüz 8-13 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 764 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-80, gündüz 65-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi ehtimalı var. Axşam əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 5-9, gündüz 12-17 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti olacaq.

# Fransada mer seçkiləri keçirilib
## Qaliblər ikinci turda bəlli olacaqlar

**Fransada böyük şəhərlərin merləri seçilirlər. İlk turdan sonra Parisdə sosialist Emmanuel Qrequar, Nitsada ifrat sağçı namizəd, Havrda isə keçmiş Baş nazir Eduard Filip öndədirlər. Bir çox namizədin son qələbəni təmin etmək üçün ifrat sağçı və ya ifrat solçularla ittifaq qurması gözlənilir.**






Builki bələdiyyə seçkiləri ilə 2020-ci ilin səsverməsi arasındakı əsas formal fərq seçkilərin nisbətən yüksək fəallığıdır. 6 il əvvəl, koronavirus pandemiyasının ən qızğın vaxtında mer seçkilərində seçicilərin 45 faizdən az hissəsi iştirak etmişsə, indi bu rəqəm 57 faizi keçib.

Səsvermə proporsional sistemdən istifadə etməklə aparılıb. İkinci tura keçmək üçün partiya siyahısı ən azı 10 faiz səs toplamalı idi. Ən çox diqqət Parisə yönəlmişdi. Paytaxtın hazırkı meri sosialist Anne İdalgo üçüncü müddətə namizədliyini irəli sürməyib.

Birinci turda sosialist Emmanuel Qrequar əhəmiyyətli bir fərqlə (38,3 faiz) qalib gəlib. Sağçı namizəd və keçmiş ədliyyə naziri Rəşidə Dati səslərin 26 faizini toplayaraq ikinci yeri tutub. Sofiya Şikiru (ifrat solçu "Yenilməyən Fransa" partiyası, 11,3 faiz), mərkəzçi Pyer-İv Burnazel (11,2 faiz) və Sara Knafo (ifrat sağçı "Rekonkista"partiyası, 10 faiz həddini çətinliklə keçib) da 2-ci turda mübarizəni davam etdirmək hüququ qazanıblar.

Seçkilərin taleyi ikinci turda həll olunacaq və namizədlər artıq indidən mümkün koalisiyalar haqqında danışırlar. Məsələn, Qrequar rəqibi Datini ifrat sağçılarla birləşib-birləşməyəcəyini demədiyinə görə tənqid edib. Öz növbəsində, "makronçu" Burnazel sağçıları yalnız millətçilərlə əməkdaşlıq etmədikləri halda dəstəkləməyə hazır olduğunu açıqlayıb. Bu arada Rəşidə Dati bildirib ki, indi bölünmə vaxtı deyil və o, solçu təriqətçilərin hakimiyyətdə olmasını istəməyənlərin hamısını birliyə çağırıb.

Əvvəllər prezident seçkilərində iştirak etmək niyyətini açıqlayan keçmiş Baş nazir Eduard Filip Havrda əhəmiyyətli bir fərqlə liderlik edir. Sorğulara görə, onun mərkəz sağçılar arasında 2027-ci ildə keçiriləcək prezident seçkilərinin ikinci turuna çıxmaq üçün ən yaxşı şansı var.

Birinci turda Eduard Filip səslərin 43,8 faizini toplayıb. Kommunist Jan-Pol Lekok 33,2, ifrat sağçı siyasətçi Frank Keller isə 15,3 faiz səs qazanıblar.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycanı Macarıstandakı turnirdə 9 boksçu təmsil edəcək

**Martın 17-də Macarıstanın Debretsen şəhərində kişi və qadın boksçular arasında beynəlxalq turnir start götürəcək.**




Boks Federasiyasından AZƏRTAC-a bildirilib ki, 5 gün davam edəcək yarışda Azərbaycan millisi də qüvvəsini sınayacaq.

Yığmanın heyətində rinqə Amin Məmmədzadə (55 kiloqram), Nəbi İsgəndərov, Nicat Alırzayev (hər ikisi 70 kiloqram), Abbasqulu Şadlinski (75 kiloqram), Həsən Osmanlı (80 kiloqram), Ramal Həsənli, Rauf Rəhimov (hər ikisi 85 kiloqram), Zeynəb Rəhimova (54 kiloqram) və Emili Rzayeva (60 kiloqram) çıxacaqlar.

Turnirdə ölkəmizi Anar Nağdıyev hakim kimi təmsil edəcək.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin İşlər İdarəsinin Binanın istismarı şöbəsinin əməkdaşı Ruslan Qurbanova həyat yoldaşı

**PÜSTƏXANIM ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Nəsimi Rayon İcra Hakimiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini Anar Kərimova əzizi

**ETİBAR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasova atası

**BƏXTİYAR ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Nəsimi Rayon İcra Hakimiyyətinin rəhbərliyi və kollektivi Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasova atası

**BƏXTİYAR ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3378
Sifariş 371

Qiyməti 60 qəpik